AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

3 MART 2018-ci il ŞƏNBƏ № 48 (6081) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

# Prezident İlham Əliyev yanğın baş verən Respublika Narkoloji Mərkəzinə gələrək vəziyyətlə tanış olub





**Martın 2-də Bakı şəhərinin Xətai rayonundakı Respublika Narkoloji Mərkəzində yanğın baş verib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dərhal hadisənin baş verdiyi Respublika Narkoloji Mərkəzinə gələrək vəziyyətlə tanış olub.

Aidiyyəti qurumların rəhbərləri yanğının başvermə səbəbləri və nəticələri barədə dövlətimizin başçısına məlumat verdilər.

Respublika Baş Prokurorluğunun, Fövqəladə Hallar, Daxili İşlər və Səhiyyə nazirliklərinin birgə məlumatına əsasən, yanğın martın 2-də saat 06.10-da beş korpusdan ibarət Respublika Narkoloji Mərkəzinin bir korpusunda baş verib.

Hadisə yerinə dərhal Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğından Mühafizə Xidmətinin canlı qüvvəsi, texnikası, Səhiyyə Nazirliyinin Təcili Tibbi Yardım xidmətləri, prokurorluq və daxili işlər orqanlarının əməkdaşları cəlb edilib. Ərazinin mühafizəsi və xilasedicilərin maneəsiz fəaliyyəti Daxili İşlər Nazirliyinin Əlahiddə Çevik Polis Alayının və Xətai Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən təmin olunub. Operativ surətdə həyata keçirilən tədbirlərlə korpusda olan 55 nəfərdən 30-u xilas edilib, onlardan 3-ü Səhiyyə Nazirliyinin Respublika Toksikologiya Mərkəzinə yerləşdirilib. Yanğın saat 08:30-da söndürülüb. Hadisə yerinin müayinəsi zamanı 25 nəfərin cəsədi aşkar edilib.



Fakt üzrə Baş Prokurorluq tərəfindən dərhal cinayət işi başlanılıb, həmçinin Baş Prokurorluğun, Daxili İşlər və Fövqəladə Hallar nazirliklərinin təcrübəli əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu yaradılıb. İlkin araşdırmaların nəticələrinə görə yanğın binanın elektrik şəbəkəsində yaranan nasazlıq səbəbindən baş verib.

Dövlətimizin başçısı hadisənin nəticələrinin tez bir zamanda aradan qaldırılması və yanğının səbəblərinin araşdırılması ilə bağlı təxirəsalınmaz tədbirlərin görülməsi ilə əlaqədar müvafiq tapşırıqlarını verdi.

Prezident İlham Əliyev Bakı Şəhər İcra Hakimiyyətinin başçısına və səhiyyə nazirinə həlak olanların ailə üzvlərinə kömək göstərilməsi və zərərçəkənlərə təcili olaraq lazımi tibbi yardım edilməsi ilə bağlı göstərişlər verdi.

Həyata keçirilən tədbirlər Azərbaycan Prezidentinin şəxsi nəzarətindədir.

**AZƏRTAC**



## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu.

Bakı şəhərindəki Respublika Narkoloji Mərkəzində baş vermiş yanğının faciəli nəticələri ilə əlaqədar dərin hüznlə başsağlığımı qəbul edin.

Xahiş edirəm, həlak olanların ailələrinin dərdlərinə şərik olduğumu və onlara səbir dilədiyimi, bütün zərərçəkənlərin isə tezliklə sağalmasını arzuladığımı bildirəsiniz.

*Hörmətlə,*

**Vladimir Putin**
**Rusiya Federasiyasının Prezidenti.**

**Moskva, Kreml, 2 mart 2018-ci il.**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu.

Bakı şəhərində yanğın nəticəsində çoxsaylı insanın həlak olması barədə xəbəri dərin hüznlə qarşıladım.

Qardaş Azərbaycan xalqının dərdinə şərik olduğumu bildirir, həlak olanların doğmalarına və yaxınlarına öz adımdan və Qazaxıstan xalqı adından başsağlığı verirəm.

Xəsarət alanların tezliklə sağalmasını arzu edirəm.

*Dərin hüznlə,*

**Nursultan Nazarbayev**
**Qazaxıstan Respublikasının Prezidenti.**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli Prezident.

Bakıda müalicə mərkəzində baş verən yanğında çox sayda Azərbaycan vətəndaşının həlak olması xəbərini böyük kədər hissi ilə qarşıladım.

Xalqım, hökumətim adından və şəxsən öz adımdan həlak olanlara Allahdan rəhmət, yaralananlara şəfa diləyirəm. Qardaş Azərbaycanın kədərini ürəyimizin ən dərinliyində hiss edirik.

Fürsətdən istifadə edib, Sizə cansağlığı, qardaş Azərbaycan xalqına rifah diləyirəm.

*Hörmətlə,*

**Binəli Yıldırım**
**Türkiyə Respublikasının Baş naziri**

## Respublika Narkoloji Mərkəzində baş vermiş yanğın ilə əlaqədar Dövlət Komissiyasının yaradılması haqqında

# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2018-ci il martın 2-də Bakı şəhəri, Xətai rayonu, Zığ şosesi 13 ünvanında yerləşən Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan Respublika Narkoloji Mərkəzində yanğın baş vermiş, nəticədə həlak olanlar və yaralananlar vardır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, baş vermiş faciənin səbəblərini araşdırmaq və nəticələrini aradan qaldırmaq məqsədi ilə **qərara alıram:**

**1.** Respublika Narkoloji Mərkəzində baş vermiş yanğınla əlaqədar aşağıdakı tərkibdə Dövlət Komissiyası yaradılsın:

**Komissiyanın sədri**

**Abid Şərifov** – *Azərbaycan Respublikası Baş nazirinin müavini*

**Komissiyanın üzvləri:**

Azərbaycan Respublikasının daxili işlər naziri
Azərbaycan Respublikasının fövqəladə hallar naziri
Azərbaycan Respublikasının Baş prokuroru
Azərbaycan Respublikasının səhiyyə naziri
Azərbaycan Respublikasının maliyyə naziri
Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri
Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi
Bakı Şəhər İcra Hakimiyyətinin başçısı
Bakı şəhəri Xətai Rayon İcra Hakimiyyətinin başçısı

**2.** Dövlət Komissiyası:

*2.1.* hadisənin baş verməsi səbəblərini və şəraitini araşdıraraq onun nəticələrinin aradan qaldırılması üçün təxirəsalınmaz tədbirlər müəyyənləşdirsin və həyata keçirsin;

*2.2.* hadisə nəticəsində zərər çəkənlərə və həlak olanların ailə üzvlərinə maddi və digər zəruri yardım göstərilməsini təmin etsin;

*2.3.* yanğın nəticəsində xəsarət alanların müalicəsini təmin etsin;

*2.4.* Mərkəzin işçilərinin və müalicə alanların müvəqqəti yerləşdirilməsi ilə bağlı zəruri tədbirləri həyata keçirsin;

*2.5.* Mərkəzin yeni binasının tikintisi ilə bağlı işlərin tamamlanmasını qısa müddət ərzində təmin etsin;

*2.6.* görülmüş işlər haqqında mütəmadi məlumat versin.

**3.** Azərbaycan Respublikası Baş Prokurorluğu Daxili İşlər və Fövqəladə Hallar nazirlikləri ilə birlikdə baş vermiş yanğın hadisəsinin səbəblərinin araşdırılması və təqsirkar şəxslərin müəyyən edilərək məsuliyyətə cəlb edilməsi üçün təxirəsalınmaz istintaq tədbirlərini həyata keçirsinlər.

**4.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 2 mart 2018-ci il.**

# Moskvada MDB İqtisadi Şurasının 77-ci iclası keçirilib

**Moskvada Müstəqil Dövlətlər Birliyinin (MDB) İqtisadi Şurasının 77-ci iclası keçirilib. İclasda Azərbaycanı Baş nazirin birinci müavini Yaqub Eyyubov təmsil edib.**



AZƏRTAC xəbər verir ki, iclasın gündəliyinə MDB ölkələrinin iqtisadiyyat sahəsində qarşılıqlı fəaliyyəti ilə bağlı geniş məsələlər daxil olub. İclas iştirakçıları MDB Hökumət Başçıları Şurasının müzakirəsinə təqdim ediləcək bir sıra sənədlərin layihələrini bəyəniblər. Söhbət Birlik dövlətlərinin intellektual mülkiyyət bazarının formalaşması və inkişafı haqqında Sazişin, Dövlətlərarası standartlaşdırmaya aid sənədlərin yayılması haqqında Sazişin, Energetikanın innovasiyalı inkişafı və qabaqcıl energetika texnologiyalarının işlənib hazırlanması sahəsində MDB ölkələrinin əməkdaşlığı Konsepsiyasının və bu konsepsiyanın reallaşdırılması ilə bağlı Təxirəsalınmaz Tədbirlər Planının, habelə 2025-ci ilə qədər olan dövr üçün quduzluğun profilaktikası və ona qarşı mübarizə sahəsində MDB ölkələrinin Birgə Fəaliyyəti Kompleksinin layihələrindən gedir.

İqtisadi Şura xidmətlərin azad ticarəti barədə Sazişin layihəsi üzərində işi davam etdirmək üçün Birlik ölkələrinin iqtisadiyyat nazirlərindən (nazir müavinlərindən) ibarət yüksək səviyyəli işçi qrup yaradılmasını qərara alıb və 2018-ci il üçün həmin qrupun iclaslarının qrafikini təsdiq edib.

İclas iştirakçıları 2018-2020-ci illər üçün Qazaxıstan Materialşünaslıq Tokamakında elmi tədqiqatlar proqramını təsdiq ediblər.

İqtisadi Şuranın qərarı ilə Rusiya Federal Nüvə və Radiasiya Təhlükəsizliyi Mərkəzinə MDB iştirakçıları olan dövlətlərin işlənilmiş nüvə yanacağı, radioaktiv tullantılarla davranış və nüvə-radiasiya təhlükəli obyektlərin istismardan çıxarılması məsələləri üzrə baza təşkilatı statusu verilib.

İqtisadi Şura məhsulların və xidmətlərin keyfiyyəti sahəsində qazanılmış nailiyyətlərə görə 2017-ci ilin Müstəqil Dövlətlər Birliyi Mükafatı üzrə müsabiqənin Münsiflər Heyətinin təqdimatını nəzərdən keçirərək Birlik ölkələrinin bir sıra idarə və müəssisələrinə bu mükafatın laureatları və diplomantları adları verilməsini qərara alıb.

İclasda bir sıra büdcə-maliyyə məsələləri və təşkilati məsələlər də müzakirə olunub.

MDB İqtisadi Şurasının növbəti iclasının cari ilin iyun ayında Moskvada keçirmək nəzərdə tutulub.

AZƏRTAC

# "Abşeron" yatağının operatorluğunu JOCAP həyata keçirəcək

**Xəzər dənizinin Azərbaycan sektorundakı "Abşeron" qaz-kondensat yatağının operatorluğunu "Abşeron Neft" Birgə İstismar Şirkəti (JOCAP) həyata keçirəcək.**



Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, energetika naziri Pərviz Şahbazov Fransanın "Total" şirkətlər qrupunun Cənubi Avropa və Xəzər regionu üzrə vitse-prezidenti Bernard Klementin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Görüşdə Azərbaycanla əməkdaşlıq, eləcə də "Abşeron" qaz-kondensat yatağının işlənməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Nazir "Abşeron" yatağının işlənməsi üzrə "Total" şirkəti ilə əməkdaşlıqdan məmnunluğunu bildirib. İlkin mərhələdə ölkədaxili tələbatın ödənilməsinə hesablanmış bu qaz layihəsi üzrə görülən işlər və ilk qazın hasil olunması istiqamətində planlaşdırılan tədbirlərlə maraqlanıb.

"Total" şirkətlər qrupunun vitse-prezidenti Bernard Klement SOCAR-la yüksək səviyyədə əməkdaşlığın nümunəsi kimi "Abşeron" qaz-kondensat yatağının operatorluğunu "Abşeron Neft" Birgə İstismar Şirkətinin həyata keçirəcəyini bildirib. Yataqda ilk quyunun VI nəsil Yarımdalma Qazma Qurğusu ilə qazılacağı və bu prosesin gələn ilin mart ayına kimi yekunlaşacağı, "Abşeron" yatağı üçün platformanın inşası, ixrac boru kəmərinin layihələndirilməsi və quraşdırılması işlərinə isə bu ilin ortasında start veriləcəyi qeyd edilib.

"Abşeron" yatağında hasilatın 2020-ci ilə planlaşdırıldığını deyən Bernard Klement ilkin mərhələdə illik təxminən 1,5 milyard kubmetr, 2022-2023-cü illərdə 5 milyard kubmetr qaz hasilatının nəzərdə tutulduğunu diqqətə çatdırıb.

Görüşdə bərpaolunan enerji mənbələri üzrə əməkdaşlıq perspektivləri ilə bağlı da müzakirələr aparılıb.

AZƏRTAC

# Vyanada Azərbaycan ilə Avstriya arasında Qarışıq Komissiyanın 9-cu iclası keçirilib

**Vyana şəhərində Azərbaycan Respublikası ilə Avstriya Respublikası arasında iqtisadiyyat, kənd təsərrüfatı, sənaye, texnika və texnologiya sahələrində əməkdaşlıq üzrə Qarışıq Komissiyanın 9-cu iclası keçirilib.**




AZƏRTAC xəbər verir ki, komissiyanın iclasına Azərbaycanın nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə və Avstriyanın iqtisadiyyat və rəqəmsallaşdırma üzrə federal nazirin müavini Matias Çirf həmsədrlik edib.

İclasda hazırkı iqtisadi durum, ikitərəfli iqtisadi əlaqələr, qarşılıqlı olaraq investisiyaların cəlb olunması, rəqəmli texnologiyalar, o cümlədən ətraf mühit texnologiyaları, enerji səmərəliliyi, kənd təsərrüfatı, maliyyə, standartlaşma, gənclər, eləcə də digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olunub.

Qarışıq Komissiyanın iclasında çıxış edən nazir Ramin Quluzadə bildirib ki, Azərbaycanla Avstriya arasında münasibətlər dinamik şəkildə inkişaf edir. Nazir dövlət başçılarının və digər rəsmi şəxslərin qarşılıqlı rəsmi səfərlərinin ölkələrimiz arasında dostluq münasibətlərinin formalaşmasında mühüm rol oynadığını vurğulayıb. O qeyd edib ki, bu məqsədlə Avstriya ilə Azərbaycanı etibarlı tərəfdaşlara çevirib.

Bildirilib ki, ötən il ikitərəfli ticarət həcmində artım müşahidə olunsa da, mövcud dövriyyə iki dövlətin iqtisadi potensialına cavab vermir.

Toplantıda iştirak edən Avstriya şirkətləri Azərbaycanda fəaliyyətlərini genişləndirməyə maraq göstəriblər və bu ilin may ayında Bakı şəhərində iki ölkənin özəl sektor nümayəndələrinin iştirakı ilə biznes forumun təşkil olunması qərara alınıb.

İclasda Azərbaycan tərəfindən İqtisadiyyat, Xarici İşlər, Gənclər və İdman, Kənd Təsərrüfatı və Energetika nazirliklərinin yüksək səviyyəli nümayəndələri sahəvi məsələlər barədə çıxış ediblər.

Həmçinin iclas çərçivəsində Bakı şəhərinin Beynəlxalq Sərgilər Bürosunun 2025-ci ildə keçiriləcək Ümumdünya Sərgisinə (Ekspo 2025) ev sahibliyi üçün namizədliyi ilə bağlı xüsusi təqdimat keçirilib.

İclasın sonunda imzalanan protokolda iqtisadiyyatın müxtəlif istiqamətləri üzrə əməkdaşlığın genişləndirilməsi ilə bağlı məsələlər öz əksini tapıb.

Sənədə əsasən, iki ölkə arasında əlaqələrin əsas bütövlüyü və suverenliyə hörmət prinsipləri də daxil olmaqla, beynəlxalq hüququn fundamental norma və prinsipləri əsasında qurulması, fiziki və hüquqi şəxslərin bu norma və prinsiplərə əsaslanmaqla fəaliyyət göstərməsi təmin ediləcək.

Azərbaycan tərəfinin xahişi ilə Avstriya turizm şirkətlərinin işğal edilmiş ərazilərə qeyri-qanuni səfərlər təşkil etməsinin qarşısının alınması məsələsi də protokola təsbit edilib.

AZƏRTAC

# Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib

**Martın 2-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.**



AZƏRTAC xəbər verir ki, əvvəlcə Komissiyanın fevralın 24-də və 27-də keçirilmiş iclaslarının protokolları təsdiq edilib.

Sonra aprelin 11-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində səsvermənin yeri və vaxtı barədə seçicilərin məlumatlandırılmasına dair bildirişin mətni, forması, sayı və hazırlanma qaydası ilə bağlı məsələyə baxılıb.

Qeyd edək ki, bildirişdə seçicinin adı, özünün və səs verəcəyi seçki məntəqəsinin ünvanı, səsvermənin yeri və vaxtı, səsvermə prosesində istifadə edilən şəxsiyyəti təsdiq edən sənədlərin siyahısı, həmçinin səsvermə qaydaları ətraflı şəkildə əks olunur. Komissiya üzvlərinin müzakirəsindən sonra səsvermənin yeri və vaxtı barədə seçicilərin məlumatlandırılmasına dair 5347803 (beş milyon üç yüz qırx yeddi min səkkiz yüz üç) bildirişin mətbəə üsulu ilə hazırlanmasına qərar verilib.

İclasda aprelin 11-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində namizədliyinin irəli sürülməsi təsdiq olunmuş Tural Feyruz oğlu Abbaslı tərəfindən təqdim edilmiş səlahiyyətli nümayəndələr də qeydə alınıb.

Komissiyanın iclasında, həmçinin bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilib.

Kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirak etdiyi iclasda cari məsələlərə də baxılıb.

AZƏRTAC

# "Milli iqtisadiyyatın dayanıqlı inkişafında kiçik və orta sahibkarlığın rolu"



**Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) "Milli iqtisadiyyatın dayanıqlı inkişafında kiçik və orta sahibkarlığın rolu" mövzusunda respublika elmi-praktik konfransı keçirilib.**

İctimaiyyətlə Əlaqələr Şöbəsinin məlumatında bildirilir ki, biznes və menecment fakültəsinin təşkilatçılığı ilə keçirilən konfransda UNEC-in professor-müəllim heyəti ilə yanaşı, dövlət və özəl qurumların nümayəndələri də iştirak edib.

Kiçik və orta sahibkarlığın (KOS) inkişafının Azərbaycanda həyata keçirilən geniş miqyaslı iqtisadi islahatların əsas prioritetlərindən olduğunu diqqətə çatdıran fakültə dekanı, dosent Mirağa Əhmədov bildirib ki, Prezident İlham Əliyevin təsdiq etdiyi "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi" KOS-un dövlət tərəfindən təşviq və dəstəklənməsini xarakterizə edən əsas faktorlardan biridir. O, Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyinin yaradılması institusional və struktur islahatlarının tərkib hissəsi kimi qiymətləndirib.

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun icraçı direktorunun müavini Arif Vəlməmmədov regional proqramlar və investisiya layihələrinin hazırlanması və həyata keçirilməsində fondun gördüyü işlərdən danışıb.

İqtisadi və Sosial İnkişaf Mərkəzinin (CESD) sədri, iqtisadçı alim Vüqar Bayramov KOS-un inkişafının Azərbaycanda innovativ iqtisadiyyatın formalaşmasına pozitiv təsirlərindən söz açıb. Davos İqtisadi Forumun son hesabatında Azərbaycanın dünyanın ən innovativ ölkələrindən biri kimi qiymətləndirilməsinə diqqət çəkən alim, bunun ölkədə resurs iqtisadiyyatından innovativ iqtisadiyyata transferin reallaşdığından xəbər verdiyini vurğulayıb.

Ölkəmizdə həyata keçirilən iqtisadi siyasətin əsas hədəflərindən birinin kiçik və orta sahibkarlığın inkişafı olduğunu bildirən Azərbaycan Sığortaçılar Assosiasiyasının sədri Mustafa Abbasbəyli bu sahədə həyata keçirilən islahatlardan danışıb. "Kapital Bank"ın Komplayens departamentinin meneceri Kamil Lətifov KOS-un inkişafında bank sektorunun rolundan bəhs edib.

UNEC-in Tələbə Elmi Cəmiyyətinin sədri Aslan Əzimzadə konfransın tələbələrin innovativ ideyalarının sahibkarlıq subyektinə çevrilməsində mühüm rol oynayacağını bildirib.

Çıxışlardan sonra iştirakçılara sertifikatlar təqdim olunub.

Konfrans işini panel müzakirələrdə davam etdirib.

Ülvi QARAYEV,
"Respublika".

# Azərbaycan ilə Gürcüstan arasında qadın sahibkarlığının inkişafı məsələləri müzakirə olunub



**Martın 2-də Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova BMT Qadınlar Təşkilatının Gürcüstandakı nümayəndəsi Erika Kvapilova ilə görüşüb.**

Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, görüşün əsas mövzusu "Cənubi Qafqazda qadınların iqtisadi səlahiyyətlərinin gücləndirilməsi" layihəsi üzrə əməkdaşlığın inkişaf etdirilməsi olub.

Dövlət Komitəsinin sədri Hicran Hüseynova bildirib ki, Azərbaycan BMT, Avropa Şurası və digər təşkilatlar ilə birgə qadın hüquqlarının müdafiəsi, gender bərabərliyinin təmin edilməsi sahəsində vacib layihələr həyata keçirir.

Görüşdə qadın sahibkarlığının inkişafı, qadın resurs mərkəzlərinin fəaliyyətinin gücləndirilməsi, ikitərəfli əməkdaşlığın səviyyəsinin artırılması və digər mövzular ətrafında müzakirələr aparılıb.

AZƏRTAC

# Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Gəncədə vətəndaşlarla görüşüb

**Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə müvafiq olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu davam etdirir, onların müraciətlərinin həlli üçün operativ tədbirlər görürlər.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova martın 2-də Gəncə şəhərində Kəlbəcərdən olan məcburi köçkünlər üçün salınmış yeni qəsəbədə vətəndaşları qəbul edib. Kəlbəcər Rayon Mədəniyyət Evində keçirilən qəbulda Gəncə, Mingəçevir, Naftalan və Yevlax şəhərlərindən, eləcə də Goranboy, Göygöl, Samux və Xocalı rayonlarından olan vətəndaşlar iştirak ediblər.

Qəbulda komitə sədri vətəndaşların fikir və təkliflərini dinləyib. Vətəndaşlar əsasən qadın və uşaq hüquqlarının müdafiəsi, məşğulluq, sağlamlıq, boşanmalardan yaranan problemlər, imkansız ailələrin müvafiq istiqamətdə təminatı ilə əlaqədar müraciətlər ediblər.

Vətəndaşların Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin səlahiyyət dairəsinə aid məsələlərlə bağlı müraciətləri araşdırılaraq cavablandırılıb və aidiyyəti üzrə tədbirlər görülüb. Müraciətlərin bir çoxu elə yerindəcə həll edilib, bəzi məsələlər isə araşdırılmaq üçün nəzarətə götürülüb. Komitənin səlahiyyətlərinə aid olmayan müraciətlərlə əlaqədar vətəndaşlara hərtərəfli izahat verilib, icrası nəzarətdə saxlanılmaqla aidiyyəti strukturlara çatdırılacağı bildirilib.

Qəbula gələn vətəndaşlar yaradılan şəraitdən razılıq edib, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən bölgələrdə bu cür qəbulların keçirilməsinə görə dövlətimizin başçısına minnətdarlıqlarını ifadə ediblər.

AZƏRTAC

# Respublika Narkoloji Mərkəzində baş vermiş yanğın nəticəsində 25 nəfər həlak olub

*Baş Prokurorluq, Fövqəladə Hallar, Daxili İşlər və Səhiyyə nazirliklərinin birgə məlumatı*

**Baş Prokurorluq, Fövqəladə Hallar, Daxili İşlər və Səhiyyə nazirlikləri Respublika Narkoloji Mərkəzində baş vermiş yanğınla bağlı birgə məlumat yayıb.**

AZƏRTAC xəbər verir ki, məlumatda martın 2-də saat 06.10-da Bakı şəhərinin Xətai rayonu ərazisində yerləşən Respublika Narkoloji Mərkəzinin birmərtəbəli korpusunda yanğın baş verdiyi bildirilir. Qeyd edilir ki, hadisə yerinə dərhal Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğından Mühafizə Xidmətinin canlı qüvvəsi, texnikası, Səhiyyə Nazirliyinin Təcili Tibbi Yardım xidmətləri, Prokurorluq və Daxili İşlər orqanlarının əməkdaşları cəlb olunub.

Ərazinin mühafizəsi və xilasedicilərin maneəsiz fəaliyyəti Daxili İşlər Nazirliyinin Əlahiddə Çevik Polis Alayının və Xətai Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən təmin edilib.

Operativ surətdə həyata keçirilmiş tədbirlərlə korpusda olan 55 nəfərdən 30-u xilas edilib, onlardan 3-ü Səhiyyə Nazirliyinin Respublika Toksikologiya Mərkəzinə yerləşdirilib.

Yanğın saat 08.30-da söndürülüb, hadisə yerinin müayinəsi zamanı 25 nəfərin cəsədi aşkar edilib.

Faktla bağlı Baş Prokurorluq tərəfindən dərhal Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb, həmçinin Baş Prokurorluğun, Daxili İşlər və Fövqəladə Hallar nazirliklərinin təcrübəli əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu yaradılıb.

İlkin araşdırmaların nəticələrinə görə, yanğın binanın elektrik şəbəkəsində yaranmış nasazlıq səbəbindən baş verib.

Həyata keçirilən tədbirlər Azərbaycan Prezidentinin şəxsi nəzarətindədir.

AZƏRTAC

# Respublika Narkoloji Mərkəzində baş verən yanğınla əlaqədar aidiyyəti qurumlarda "Qaynar xətt" yaradılıb

**Xəbər verdiyimiz kimi, martın 2-də Bakı şəhərinin Xətai rayonu ərazisində yerləşən Respublika Narkoloji Mərkəzində baş verən və ağır nəticələrə səbəb olan yanğınla əlaqədar Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində Cinayət Məcəlləsinin 225.2-ci (yanğın təhlükəsizliyi qaydalarını pozma, ağır nəticələrə səbəb olduqda) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə, ağır nəticələrə səbəb olduqda) maddələri ilə cinayət işi başlanıb, hadisənin baş vermə səbəblərinin müəyyənləşdirilməsi məqsədilə müvafiq ekspertizalar təyin olunub.**

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, hazırda iş üzrə Baş Prokurorluğun, Daxili İşlər və Fövqəladə Hallar nazirliklərinin əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu tərəfindən zəruri və təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Hadisə nəticəsində zərər çəkmiş şəxslərin qohumlarından, hadisənin şahidi olan şəxslərdən, habelə digər vətəndaşlardan onları maraqlandıran məsələlərlə bağlı yaradılmış, Baş Prokurorluğun 441-59-77, Daxili İşlər Nazirliyinin 590-93-31, Fövqəladə Hallar Nazirliyinin 512-33-00 və Səhiyyə Nazirliyinin 91-03 nömrəli "Qaynar xətt" telefon nömrələri ilə əlaqə saxlamaları xahiş olunur.

AZƏRTAC

# “ADA” Universitetində “Karyera həftəsi” yekunlaşıb






**“ADA” Universitetində bu ali məktəbin Karyera Mərkəzinin təşəbbüsü ilə fevralın 27-dən keçirilən altıncı “Karyera həftəsi” başa çatıb.**

AZƏRTAC xəbər verir ki, bununla bağlı martın 2-də universitetdə “Karyera həftəsi”nin yekun tədbiri və “Karyera yarmarkası” keçirilib.

“Kapital Bank” və “Azersun Holding” şirkətlər qrupunun dəstəyi ilə həftə ərzində müxtəlif sahələrdə fəaliyyət göstərən yüzdən çox şirkətin nümayəndələri universitetdə tələbə və məzunlar üçün təqdimatlar keçirib, gənclərdə məşğulluq bazarı barədə təsəvvür yaradıb, onlara karyerada uğurqazanma ilə bağlı məsləhətlər verib və işçi qüvvəsi axtarıblar.

“İstedadlarla karyera yolları arasında körpü” devizi altında keçirilən “Karyera yarmarkası”nda iki mindən çox tələbə və məzun şirkətlərin insan resursları nümayəndələri ilə bilavasitə ünsiyyətdə



olub, mövcud iş yerlərinə sənəd vermək imkanı qazanıblar. Həmçinin tələbələr Azərbaycanın iş bazarındakı ən aparıcı qurumlarının təmsilçiləri ilə təmasda olub, dövlət və özəl sektorda insan kapitalı ehtiyacı barədə aydın təsəvvür əldə ediblər. “Karyera yarmarkası”nda şirkətlər səkkiz yüzdən çox iş və stajkeçmə imkanları təqdim ediblər.

“ADA” Universitetinin Karyera Mərkəzi tələbələri birinci kursdan başlayaraq məşğulluq bazarı ilə tanış edir, ixtisasları üzrə müxtəlif dövlət və fərdi qurumlarda staj təcrübəsi qazanmaqla yönləndirir. Əksər tələbələr staj təcrübəsi topladıqları qurumlarda iş təklifi alırlar. Bunun nəticəsi olaraq universitetin məzunları arasında məşğulluq göstəricisi 90 faizə çatır.

“Karyera həftəsi” çərçivəsində ilk dəfə “ADA” Universiteti onun ən çox sayda tələbə və məzunlarını işə qəbul edən 13 qurumu, o cümlədən Xarici İşlər Nazirliyi, SOCAR, Maliyyə Nazirliyi, Dövlət Neft Fondu, Bakı Beynəlxalq Dəniz Ticarəti Limanı və “Azərkosmos” ASC-ni mükafatlandırıb.

Mükafatları “ADA” Universitetinin rektoru Hafiz Paşayev təqdim edib.

**AZƏRTAC**

# Əbu-Dabi reysinin açılması Azərbaycan vətəndaşlarına uçuşların coğrafiyasını daha da genişləndirməyə imkan verəcək

**Azərbaycan və BƏƏ-nin milli aviadaşıyıcıları - AZAL və Etihad Airways arasında razılaşmaya əsasən Əbu-Dabi (AUH) - Bakı (GYD) - Əbu-Dabi (AUH) marşrutu üzrə birgə reyslərin ilk dəfə yerinə yetirilməsinə başlanılmışdır. Uçuşlar hər həftə - çərşənbə, cümə və şənbə günləri “Airbus A320” təyyarəsi ilə yerinə yetiriləcək.**



İlk reys “EY297” martın 2-də, göyərtəsində Etihad Airways aviaşirkətinin rəhbər heyəti, diplomatlar, KİV təmsilçiləri və digərlərinin də daxil olduğu xüsusi nümayəndə heyəti ilə Əbu-Dabidən uçmuşdur. Heydər Əliyev Beynəlxalq Aeroportuna enən təyyarə ənənəvi “su arkası” ilə qarşılanmış, pilot kabinəsindən Azərbaycan və BƏƏ-nin bayraqları dalğalanmışdır.

Elə həmin gün AZAL QSC-nin prezidenti Cahangir Əsgərov və




“Etihad Airways” aviaşirkətinin baş icraçı direktoru Piter Baumqartnerin görüşü keçirilmişdir. Görüşdə Azərbaycan və BƏƏ-nin milli aviadaşıyıcılarının əməkdaşlıq səviyyəsindən məmnunluq ifadə olunmuşdur.

Cahangir Əsgərov qeyd etmişdir ki, Azərbaycan Prezidenti İlham Əliyevin daimi diqqət və qayğısı sayəsində Azərbaycanın mülki aviasiyası sürətlə inkişaf edir. Son illərdə mülki aviasiyanın maddi-texniki bazasının gücləndirilməsi və onun müasir səviyyəyə çatdırılması istiqamətindəki işlər ardıcıl və sistemli xarakter daşıyır. AZAL QSC-nin prezidenti onu da bildirmişdir ki, AZAL və Etihad Airways mülki aviasiya sahəsində köhnə tərəfdaşlardır. Azərbaycan və BƏƏ-ni müntəzəm sərnişin daşımaları əlaqələndirir, aviaşirkətlər arasında birgə reyslərin açılması isə Azərbaycan vətəndaşlarına uçuşların coğrafiyasını daha da genişləndirməyə imkan verəcək, əlavə turist axını cəlb edəcək və işgüzar səfərlər üçün daha çox imkanlar yaradacaq.

Etihad Airways aviaşirkətinin baş icraçı direktoru Piter Baumqartnerin sözlərinə görə, yeni reys BƏƏ-dən sərnişin axınının daha da artmasına və iki ölkə arasında ikitərəfli münasibətlərin möhkəmləndirilməsinə səbəb olacaq. O demişdir: “Əbu-Dabi və Bakını birləşdirən müntəzəm reyslərin açılmasına çox şadıq. 2015-ci ildə Azərbaycan tərəfindən BƏƏ vətəndaşları üçün sadələşdirilmiş viza alınması proqramı ölkəyə olan marağı əhəmiyyətli dərəcədə stimullaşdırdı ki, bu da yüksək turist axını artımına səbəb oldu”.

**“Azərbaycan Hava Yolları” QSC.**

# DTX-nin Heydər Əliyev adına Akademiyasının nəzdindəki Velosiped idman klubunun rəhbər orqanlarının tərkibi formalaşdırılıb






**Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Heydər Əliyev adına Akademiyasının nəzdində yaradılmış Velosiped idman klubunun (VİK) fəaliyyətinin təşkili və klubun idarəetmə orqanlarının formalaşdırılması məqsədilə Akademiyanın idmançı əməkdaşlarının, idman ictimaiyyətinin və fəallarının konfransı keçirilib.**

DTX-nin ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, konfransda vergilər nazirinin müavini, Azərbaycan Velosiped İdmanı Federasiyasının (AVİF) birinci vitse-prezidenti Sahib Ələkbərov, gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov, velosiped idman növü üzrə veteran Əli Xəlfəyev, AVİF-in üzvləri, DTX-nin rəhbər əməkdaşları və digər qonaqlar iştirak ediblər.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının dövlət himni səsləndirilib.

Konfransda ölkəmizdə velosiped idman növünün inkişaf tarixi və keçdiyi yola nəzər salınıb, Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində DTX-nin təlim-tədris və maddi-texniki bazasının möhkəmləndirilməsi, şəxsi heyətin sosial müdafiəsinin gücləndirilməsi və iş şəraitinin yaxşılaşdırılması ilə yanaşı, əməkdaşların əməliyyat-döyüş və fiziki hazırlığının yüksəldilməsinə də xüsusi diqqət yetirildiyi qeyd olunub. Həmçinin DTX-də şəxsi heyətin idmanla məşğul olması və fiziki sağlamlığının möhkəmləndirilməsi üçün hər cür şəraitin yaradıldığı diqqətə çatdırılıb.

Bildirilib ki, Velosiped idman klubu DTX əməkdaşlarının təşəbbüsü və bu idman növünə olan maraq nəzərə alınaraq, Dövlət Təhlükəsizliyi Xidmətinin rəisinin əmri ilə təsis edilib. Ötən il dekabrın 24-də isə VİK-in əsasnaməsi təsdiq edilib, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsində idman təşkilatı kimi qeydiyyata alınıb.

Səs hüquqlu nümayəndələrin əksəriyyətinin iştirak etdiyi konfransda gizli səsvermə yolu ilə VİK-in idarə heyətinin və təftiş komissiyasının üzvləri seçiliblər.

İdarə heyətinin ilk iclasında dəfələrlə velosiped idmanı üzrə respublika çempionu olmuş, idman ustası Vüqar Salahov səs çoxluğu ilə VİK-in idarə heyətinin sədri seçilib. Həmçinin klubun emblemi, döş nişanı, üzvlük vəsiqəsi, eləcə də təltifləri haqqında əsasnamələr və təsvirləri açıq səsvermə yolu ilə təsdiqlənib.

Əli Xəlfəyev, Sahib Ələkbərov, İsmayıl İsmayılov, Raqif Abbasov çıxışlarında konfransın işinin yüksək səviyyədə təşkil olunduğunu qeyd ediblər.

Natiqlər əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə gündən-günə qüdrətlənən müasir Azərbaycanda idmanın inkişafına göstərilən hərtərəfli diqqət və qayğı sayəsində ölkəmizin qazandığı idman şöhrətindən danışıblar. Qeyd olunub ki, Azərbaycanın yüksək idman nailiyyətlərinin əldə edilməsində Birinci vitse-prezident Mehriban xanım Əliyevanın əvəzsiz xidmətləri var. Bu misilsiz zəhmət qədirbilən xalqımız tərəfindən hədsiz coşqu və böyük rəğbətlə qarşılanır.

Çıxış edənlər Azərbaycanın daim öz idmançılarının uğurları ilə fəxr etdiyini, bütün qələbələrin təməlində ilk öncə Vətən sevgisinin, vətəndaş-dövlət birliyinin, xalq-iqtidar həmrəyliyinin durduğunu və bunun idman zəfərlərinə aparan başlıca amil olduğunu vurğulayıblar. Qeyd olunub ki, hər sahədə uğurlara doğru cəsarətlə və qətiyyətlə addımlayan müstəqil Azərbaycanın bütün idmançıları, o cümlədən DTX-nin əməkdaşları olan idmançılar, habelə VİK-in üzvləri bundan sonra da yüksək nəticələr əldə edərək, ölkəmizin idman nüfuzunun yüksəldilməsinə layiqli töhfələr verəcəklər.

**AZƏRTAC**

# ABŞ-dakı erməni lobbisinin rəhbərlərindən biri Xocalı qətliamının Ermənistan qoşunları tərəfindən törədildiyini etiraf edib

**Amerikadakı radikal erməni lobbisinin təhriki ilə Kaliforniya Ştat Senatında fevralın 28-də keçirilən, Sumqayıt hadisələrinin 30-cu ildönümünə həsr olunan dinləmələrdə lobbi nümayəndəsi tərəfindən Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı həqiqətə uyğun olmayan, qərəzli və təhrif edilmiş məlumatlar səsləndirilib.**

AZƏRTAC xəbər verir ki, dinləmələrin ardınca zalda əyləşənlər şərh və suallar verməyə dəvət olunublar. Kaliforniyada yaşayan Azərbaycan icmasının gənc üzvləri faktlara əsaslanan çıxışlar edərək səsləndirilən yalan məlumatları ifşa ediblər. Onlar həm senatorları, həm də çıxış edən erməni lobbisinin nümayəndəsini sıxışdıraraq, Sumqayıt hadisələrinə toxunulduğu halda niyə heç bir yerdə Xocalı faciəsi, Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində doğma torpaqlarından didərgin düşmüş 1 milyon qaçqın və məcburi köçkün haqqında bəhs edilmədiyi, nəyə görə Azərbaycan icmasından heç kimin çıxış üçün dəvət olunmadığı və məsələlərə birtərəfli yanaşıldığı ilə bağlı suallar ünvanlayıblar. Çətin vəziyyətdə qalan və hər vəchlə suallara cavab verməkdən yayınan senator Entoni Portantinonun köməyinə erməni icmasının üzvləri yetişməyə çalışıblar.

Şərh edənlərdən biri, Amerika Erməni Assambleyasının ABŞ-ın qərb regionu üzrə direktoru Mihran Tumacan çıxışında həm özünü, həm də bütün ermənilər çətin vəziyyətə salaraq, Ermənistanın Xocalıda dinc azərbaycanlı əhaliyə qarşı qırğın törətdiyini etiraf edib və dolaşıq fikirləri ilə əslində özlərini ifşa edib. Onun çıxışından həmin hissəni olduğu kimi təqdim edirik: “Mən burada azərbaycanlı tələbələrin səsləndirdiyi fikirlərə cavab vermək istəyirəm. Onlar yanlış olaraq Xocalıda baş verənləri soyqırımı adlandırırlar. Orada baş verənlər soyqırımı deyil, faciədir. Gənc yaşında həlak olmuş tanınmış azərbaycanlı jurnalist Çingiz Mustafayevin faciə yerindən çəkdiyi videolar açıq-aydın göstərir ki, Ermənistan silahlı qüvvələri Xocalıda yaşayan azərbaycanlıları öncədən xəbərdarlıq etmişdi ki, Xocalıda ... (dili dolaşır) gərgin döyüşlər gedəcək. Bundan başqa, Ermənistan qoşunları mülki əhalinin sərbəst çıxması üçün dəhliz də açmışdı. Çoxlu azərbaycanlı bu dəhlizdən keçib gedə bildi, ancaq bir çoxu da keçə bilmədi. Çingiz Mustafayev və hadisə yerindən reportajlar hazırlayan digər azərbaycanlı jurnalistlər də qeyd ediblər ki, çoxlu sayda azərbaycanlı məhz o dəhlizdən keçmədikləri üçün öldürülüblər”.

Faktiki olaraq erməni lobbisinin Amerikadakı rəhbərlərindən biri olan bu şəxs Xocalıda azərbaycanlıların Ermənistan silahlı qüvvələri tərəfindən qətlə yetirilməsini etiraf edərək, bu cinayətə öz aləmində haqq qazandırmaq üçün çox gülünc arqumentdən istifadə edib. Axı günahsız və dinc insanların, qadınların, körpə uşaqların, qocaların ölümünə necə haqq qazandırmaq olar?

**AZƏRTAC**

# Kazimirovun KVAZİBARIŞIĞI - erməni işğalçıları üçün “müqəddəs yazı”

**Bu yaxınlarda erməni millətçiləri qondarma “Artsax azadlıq hərəkatı”nın 30 illiyini təntənə ilə qeyd etməyə cəhd göstərdilər. Mən “təntənəli bayramlar” haqqında məlumat tapmaq üçün internetdə axtarış sistemlərini ələk-vələk etdim. Kiçik yığıncaq haqqında bir-iki qeyddən savayı heç nə tapmadım. Onların birində hansısa Artsaxın müstəqilliyi haqqında hansısa memorandum qəbul etmiş bir qrup adamın Moskvada yığışmasından söhbət gedirdi. Oxucu soruşur, bəs oraya yığılan kimlər idi? Adları sadalamaq istəmirəm, çünki buna layiq deyillər. Bir sözlə, işğalçılar və onların züy tutanları. Sadəcə “X” işarəsini basıb brauzerdə bu səhifəni bağlamaq və daha real mütaliəyə keçmək olardı. Lakin qondarma memorandumun məntiqsizliyi yan ötməyə qoymadı.**

Bax belə, yığıncaq iştirakçıları “azadlıq hərəkatının” 1988-ci ildən Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında müraciətlə başlandığını söyləyirdilər - əlbəttə, onu əvvəlcə Azərbaycandan ayırmaqla. Diqqət yetirək, AZADLIQ sözü işlədilir. Yəni onlar, görürsünüz ki, ayrıca respublika deyil, Ermənistana BİRLƏŞDİRİLMƏYİ istəyirdilər. Birləşməyi kimlərin istəməsi aydındır, şübhəsiz ki, bu, Qarabağın sadə erməniləri deyil, “baş ofisi” Yerevanda yerləşən, “böyük Ermənistan” xülyaları ilə yaşayan erməni millətçiləri idi. Başqasının torpağını qoparmaq və onu özününkünə (hərçənd özününkü olub-olmaması da, indiki Ermənistanın Azərbaycanın tarixi torpaqlarında yaradıldığı nəzərə alınsa, mübahisəli məsələdir) birləşdirmək arzusunu “azadlıq hərəkatı” adlandırmaq absurddur. Doğrudur, erməni millətçilərində təfəkkür həmişə absurd olub. Ona görə də biz bunu onlar üçün yazmırıq. Faydasızdır. Bunu həmin yığıncağın özünü politoloq, diplomat hesab edən, guya həqiqət tərəfdarları olan iştirakçıları üçün yazırıq.

Beləliklə, 1988-ci ildə proses qondarma “azadlıq hərəkatı” ilə deyil, Ermənistan SSR tərəfindən Azərbaycan ərazilərinin əsl ilhaqı ilə başlandı. Sonra, bu cənablar yazırlar ki, Azərbaycan 1918-ci ildə guya Ermənistana və Dağlıq Qarabağa ərazi iddiası irəli sürüb. Təəccüblüdür, onlar buna qədər nə düşünüblər... Dağlıq Qarabağ heç vaxt ermənilərin olmayıb. Abbasqulu ağa Bakıxanovun təsvir etdiyi Qarabağ xanlığında XVIII əsrin hadisələrində ermənilərin oraya köçürülməsindən əvvəl və sonra bu xanlığı yalnız azərbaycanlılar idarə ediblər. Bütün bunları əks etdirən sənədlər Rusiya arxivlərindədir. Özü də hansı iddiadan danışmaq olar ki, hələ o zaman Azərbaycanın qərb ərazilərinin böyük hissəsi Ermənistana keçmişdi, bu barədə də kifayət qədər sənədlər var. Biz artıq adət etmişik ki, ermənilər özləri tarix uydurur, sonra öz yalanlarına özlərini inandırır və başqalarını da buna inanmağa məcbur etməyə cəhd göstərirlər. Lakin söhbət tarixi məqamlarda deyil, başqa məsələdədir...

Ermənistan KİV-ləri separatçıların yığıncağında Vladimir Kazimirovun - 1992-1996-cı illərdə ATƏT-in Minsk qrupunun həmsədrinin iştirakını xüsusi sevinclə qeyd ediblər. İşğalçıların izlərini ört-basdır etməkdə, müsaidənizlə deyim, bu diplomatın xidmətləri hamıya məlumdur. O, özünü sülh tərəfdarı kimi göstərir. Lakin Kazimirovun KVAZİBARIŞIĞI həmişə erməni millətçilərinin əsl məqsədini - Azərbaycan ərazilərinin Ermənistan tərəfindən, əlbəttə, başqalarının köməyi ilə işğalının həqiqi mahiyyətini gizlətməyə yönəlib.

Necə olur ki, Azərbaycanın işğal edilmiş ərazilərinin beynəlxalq hüquq əsasında azad olunmasına dəvət edilmiş sabiq həmsədr işğalın ildönümünün faktiki qeyd olunduğu yığıncaqda iştirak etməyi özünə rəva görə bilir. Azərbaycan öz ərazisindən erməni qoşunlarının çıxarılmasını ciddi tələb edəndə, münaqişənin hərb yolu ilə həllindən qətiyyətlə danışanda Kazimirov fəallaşdırılır. O da müəllifi olduğu KVAZİBARIŞIĞINI yada salır. Yeri gəlmişkən, 1994-cü ildə Azərbaycan Silahlı Qüvvələrinin hücum əməliyyatları Ermənistan rəhbərliyini çox qorxuya salanda Kazimirov yalançı sülhün baş tutması üçün əlindən gələni etmişdi. O zaman onun vəzifəsi münaqişəni dondurmaq idi. Əgər o, ədalətli vasitəçi olsaydı, Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən çıxarılması barədə BMT qətnamələrinin icrasına nail olardı, heç




olmasa, buna cəhd göstərərdi. Bax, onda əsl sülhə nail olunardı.

2016-cı ildə Azərbaycan Ordusunun uğurlu aprel əks-hücum əməliyyatı zamanı Kazimirov yenə arenada göründü. Şükür Allaha, bu dəfə vasitəçi kimi yox. Lakin o, öz ampluasında idi: Azərbaycanı gərginlik eskalasiyasına və digər mövcud olmayan günahlara görə ittiham etdi. Kazimirov yaxşı başa düşür ki, Azərbaycan 1994-cü ildəki Azərbaycan deyil. Azərbaycan Ordusu erməni işğalçılarını ildırım zərbəsi ilə Yer üzündən silməyə qadirdir. Buna görə də, Kazimirov düşünür ki, hay-küy salmaq, insanları çaşdırmaq, qəbul edilmiş beynəlxalq sənədlərin mahiyyətini təhrif etmək lazımdır. Uzaq 1994-cü ildə onun məqsədi müvəqqəti barışıq bəhanəsilə Azərbaycana öz ərazilərini heç zaman hərb yolu ilə geri almağa imkan verməmək idi. Bu kvazibarışıq əslində regionu 25 ildir gərginlik altında saxlayır. Əgər Kazimirov əsl sülh istəsəydi, heç olmasa BMT-nin qətnamələrinin icrasına nail olmağa çalışardı. Bunun əvəzinə o, öz sazişini uydurdu ki, bu da heç nəyi dəyişmədi. İndi isə o, hər dəfə ermənilərin göstərişi ilə deyilənləri təkrarlayır və Azərbaycanı öz torpaqlarını hərb yolu ilə almaq fikrinə görə ittiham edir. Lakin diplomatik cəhdlər nəticə vermirsə, istənilən beynəlxalq sənəd torpaqları işğal edilmiş ölkənin onu güc yolu ilə almaq hüququnu təsdiqləyər.

Erməni millətçiləri yaxşı bilirlər ki, heç bir müstəqil Qarabağ yoxdur və olmayacaq. Onlar həmişə vahimə içində yaşamalı və qorxmalıdırlar ki, günlərin birində Azərbaycan öz zərbəsi ilə bütün işğalçı ordunu darmadağın edəcək. Qoy kazimirovlar Azərbaycanın hansısa kvazibarışığa razılıq verəcəyinə ümid bəsləməsinlər.

**Elşən ŞAHBALAYEV,**
**AZƏRTAC-ın müxbiri.**

# Xalqın alternativsiz lideri



**Heydər Əliyev siyasi kursu uğurla davam etdirilir və ölkəmiz dinamik inkişafdadır. Prezident İlham Əliyevin siyasi iradəsi əsasında həyata keçirilən kompleks tədbirlər, aparılan məqsədyönlü islahatlar ölkə iqtisadiyyatının gücləndirilməsini və bütün sahələrin tərəqqisini təmin etmişdir.**

Prezident İlham Əliyev ötən 14 il ərzində öz fəaliyyəti ilə hər bir azərbaycanlının prezidenti olduğunu sübuta yetirib. O, Azərbaycana rəhbərlik etdiyi illər ərzində ulu öndər Heydər Əliyevin əsasını qoyduğu siyasi kursu müasir dövrün çağırışına uyğun daha da inkişaf etdirərək uğurla davam etdirir. Bu illər ərzində ölkəmiz həm iqtisadi, həm siyasi, həm də beynəlxalq aləmdə böyük nailiyyətlər qazanıb. Azərbaycanda aparılan davamlı və uzunmüddətli islahatlar nəticəsində ölkəmiz iqtisadi inkişaf sürətinə görə dünyanın lider dövlətləri sırasındadır.

Cənab Prezidentin Azərbaycana rəhbərliyindən ötən dövr ərzində çoxlu sayda fabriklər, zavodlar, səhiyyə müəssisələri, idman və sağlamlıq kompleksləri, müxtəlif müəssisələr istifadəyə verilib.

Prezident İlham Əliyevin titanik səyi nəticəsində Azərbaycanda 1,9 milyon iş yeri yaradılıb ki, onlardan 1,4 milyonu daimi iş yeridir. Son 14 il ərzində ölkəmizdə 3100-dən çox məktəb, 642 tibb müəssisəsi tikilib, yaxud təmir edilib; uşaq və gənclərin sağlam həyat sürməsi, ölkəmizdə güclü idmançı nəslinin yetişməsi üçün 43 Olimpiya idman kompleksi inşa olunub. 265 min köçkün yeni evlərlə, mənzillərlə təmin edilib. Əlbəttə, bütün bunlar Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən genişmiqyaslı işlərin sadəcə qısa bir hissəsinin göstəricisidir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə davam etdirilən uğurlu sosial-iqtisadi siyasət ölkəmizin qüdrətinin artmasını təmin edib, əhalinin sosial həyat səviyyəsi daha da yaxşılaşıb. Dövlətimizin başçısı, alternativsiz lider İlham Əliyev qarşıdakı illər üçün prioritetləri açıqlayıb. Əsas hədəflər iqtisadi şaxələndirməni sürətləndirmək, ümumi daxili məhsulun iki dəfə artırılmasına nail olmaq, Azərbaycanı yüksək, inkişaf etmiş ölkələr sırasında görməkdir. Bu hədəflər təbii ki, bugünkü reallığa əsaslanır. Vurğulamaq lazımdır ki, cənab İlham Əliyev son 14 il ərzində dövlət başçısı kimi uğurlu siyasət həyata keçirib və Azərbaycan müstəqil dövlət olaraq daha da güclənib, dünya miqyasında söz sahibi olan ölkəyə çevrilib.

Azərbaycan Cənubi Qafqaz regionunun lideri olmaqla yanaşı, beynəlxalq miqyasda sayılıb-seçilən ölkələrdən biridir.

Dövlətin xarici siyasəti də milli maraqlarımıza cavab verir. Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyəti sayəsində ötən illər ərzində Azərbaycan bütövlükdə dünya üçün böyük əhəmiyyət kəsb edən nəhəng layihələrə imza atıb. İstər enerji, istərsə də nəqliyyat layihələri Azərbaycana neft ölkəsi kimi iqtisadi dividendlər gətirməklə yanaşı, onun beynəlxalq miqyasda da mövqeyini gücləndirən faktordur. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində də Prezident İlham Əliyev prinsipial mövqe nümayiş etdirir. Azərbaycan sülh tərəfdarı olmaqla yanaşı, öz ordusunu daim gücləndirir. Silahlı Qüvvələrimiz 2016-cı ilin aprel döyüşlərində öz qüdrətini, gücünü bir daha nümayiş etdirdi, düşmənə sarsıdıcı zərbələr endirildi.

Prezident İlham Əliyev ölkəmizə rəhbərlik etdiyi illərdə Azərbaycanda milli diasporumuzun təşəkkül tapmasına maksimum səy göstərilib. Dünya Azərbaycanlılarının Bakıda keçirilən IV Qurultayında İlham Əliyev qürur hissi ilə vurğuladı ki, Azərbaycan diasporu yaşadıqları ölkələrdə monolit qüvvəyə çevrilmişlər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ötən 14 il müasir tariximizə ölkənin iqtisadi, sosial, siyasi və mədəni inkişafının yüksəlişi kimi daxil olub. Bu illər ərzində keçirilən islahatlar, xüsusilə neft strategiyasının uğurla həyata keçirilməsi nəticəsində iqtisadiyyatımız üç dəfədən çox artıb. Azərbaycan dünyanın ən dinamik inkişaf edən ölkəsi kimi tanınıb və özünün iqtisadi inkişaf modelini dünyaya təqdim edib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkənin iqtisadi potensialı artırılıb, maliyyə inkişafımız böyük səviyyədə genişlənib. Ölkəmiz Avropanın enerji təhlükəsizliyinin etibarlı tərəfdaşlarından biri kimi özünü təsdiq edib. Beynəlxalq əhəmiyyətə malik Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizini reallaşması üçün öz üzərinə düşən vəzifəni layiqincə yerinə yetirir. Bütün bunların nəticəsində təbii olaraq Azərbaycanın regional və dünya iqtisadiyyatında rolu və əhəmiyyəti xeyli yüksəlib.

Ardıcıl və sistemli şəkildə həyata keçirilən sosial siyasət sayəsində insanların həyat şəraitinin yüksəldilməsi, rifahının yaxşılaşdırılması istiqamətində yüksək nailiyyətlər əldə edilib. Hər şeydən əvvəl, yoxsulluq həddi 50 faizdən 5 faizə endirilmiş, maaşlar orta hesabla 5 dəfə, pensiyalar 8 dəfə, əhalinin real gəlirləri orta hesabla 2,5 dəfə artmışdır.

Ölkəmiz dünyada yalnız neft ölkəsi kimi deyil, həm də yüksək mədəni-mənəvi dəyərlərə malik ölkə kimi tanınır. Bu gün Azərbaycan multikultural, idman və turizm ölkəsi kimi də dünyada şöhrət qazanıb. Bu gün ölkəmiz dünyaya özünü demokratik, ənənələrə sadiq, eyni zamanda, hüquqi və dünyəvi dövlət kimi təqdim edir.

Yeni Azərbaycan Partiyasının VI qurultayında dövlətimizin başçısı cənab İlham Əliyev diqqətə çatdırmışdır ki, bu gün Azərbaycan dünya miqyasında o ölkədir ki, xalq-iqtidar birliyi onun uğurlu inkişafını təmin edir.

Yeni Azərbaycan Partiyasının VI qurultayında aprelin 11-də keçiriləcək prezident seçkilərində cənab İlham Əliyevin namizədliyi irəli sürülmüşdür. Prezident seçkiləri xalqımızın həyatında mühüm siyasi hadisədir.

Hər bir azərbaycanlı bilir ki, cənab İlham Əliyev alternativsiz liderdir. İnanırıq ki, Azərbaycan xalqı aprelin 11-də keçiriləcək növbədənkənar prezident seçkilərində həmişə olduğu kimi fəallıqla iştirak edəcək və Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyevə səs verəcək.

**Ceyhun MƏMMƏDOV,**
**"Azpetrol LTD" MMC-nin baş direktoru,**
**Yeni Azərbaycan Partiyasının üzvü.**

# Ölkə başçısının apardığı uğurlu siyasət yüksək inkişafa zəmin yaradır

**Bu gün Azərbaycan inkişaf yoluna çıxmış regionda lider dövlətdir. Təbii ki, bütün sahələrdə əldə olunmuş möhtəşəm uğurlarda dövlət rəhbərinin güclü, prinsipial siyasi iradəsinin, gələcək perspektivi aydın görməsinin və vaxtında düzgün qərarlar qəbul edə bilməsinin nəticəsində qazanılıb. Azərbaycan Prezidenti cənab İlham Əliyevin ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla, müasir dövrün tələblərinə uyğun ardıcıllıqla davam etdirməsi və xalqın bu siyasəti dəstəkləməsi və dövlət başçısına olan inamı sürətli inkişafımızda həlledici rol oynamışdır. Cənab Prezident ölkə başçısı kimi fəaliyyətindən ötən 14 il ərzində müstəqillik prinsipi, milli mənafeyi qorumağı, Azərbaycanın sosial-iqtisadi yüksəlişini və digər mühüm amilləri əsas məqsəd olaraq qarşıya qoymuş və bunların həyata keçirilməsinə nail olmuşdur. Bu barədə cənab Prezident Yeni Azərbaycan Partiyasının VI qurultayındakı çıxışında vurğulamışdır ki, bizim siyasətimizin mərkəzində xalq dayanır, Azərbaycan vətəndaşı, onun problemləri, qayğıları və rifahı dayanır. Xalq-iqtidar birliyi ölkəmizdə sabitliyi və inkişafı şərtləndirən əsas amildir, bizim siyasətimiz real, konkret nəticələrə gətirib çıxarır.**

Azərbaycan Prezidenti ötən 14 ildə verdiyi bütün vədlərə əməl etmiş, hər bir vətəndaşın həyatında köklü dəyişikliklərlə səbəb olan iqtisadi islahatların müəllifinə çevrilmişdir. Məqsədyönlü aparılan islahatlar qeyri-neft sektorunun inkişafı, əhalinin rifah halının daha da yaxşılaşdırılmasını, yeni iş yerlərinin açılmasını, regionların davamlı və tarazlı inkişafını və digər vacib məsələlərin həllini təmin etmişdir. Ölkənin sosial-iqtisadi inkişaf strategiyasında prioritet kimi müəyyən edilmiş və neft-qaz gəlirlərindən səmərəli istifadə etməklə regional tarazlığın təmin edilməsi istiqamətində müstəsna rol oynayan regional inkişaf üzrə Dövlət proqramları da əhalinin işgüzar fəallığının artmasına, regionlarda sahibkarlıq fəaliyyətinin genişlənməsinə, infrastruktur layihələrin həyata keçirilməsinə, beynəlxalq tələblərə cavab verən məhsullar istehsal edən müəssisələrin yaradılmasına səbəb olmuşdur. "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişaf Dövlət Proqramı (2004-2008-ci illər), ölkə Prezidentinin 2009-cu il 14 aprel tarixli Fərmanı ilə "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı, Dövlət Proqramı"nın təsdiqi ölkədə makroiqtisadi göstəriciləri yüksəltmiş, hər iki dövlət proqramlarının icrası sosial-iqtisadi sahədə nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini təmin etmiş, əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsində mühüm rol oynamışdır. Bunlardan başqa, 2004-cü ildən başlanmış məqsədyönlü siyasətin davamı olaraq "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illər də sosial-iqtisadi inkişafı Dövlət Proqramı" hazırlanmışdır.

Yanvar ayının 29-da Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı 3-cü Dövlət Proqramının icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfransda Azərbaycan Prezidenti cənab İlham Əliyev çıxışında qeyd etdi ki, üçüncü Dövlət Proqramının da icrası uğurla başa çatır, qarşıda qoyulan bütün məqsədlərə nail olunub və biz artıq 4-cü proqramın hazırlanması ilə bağlı işlərə başlamalıyıq. Aparılan təhlillər onu göstərmişdir ki, ötən 14 il ərzində iqtisadi göstəricilərimiz xeyli dərəcədə yüksəlmişdir. İqtisadiyyat 3,2 dəfə artmışdır. Qeyri-neft iqtisadiyyatımız isə 2,8 dəfə artmışdır ki, bu da aparılan islahatların sayəsində mümkün olmuşdur. Sənaye sahəsi 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə və qeyri-neft ixracımız 4,1 dəfə artmışdır. Bu illər ərzində böyük sosial infrastruktur işləri görülmüşdür. Belə ki, 3100-dən çox məktəb, 642 tibb müəssisəsi, 43 Olimpiya İdman Kompleksi inşa olunmuşdur. Ötən 14 il ərzində ölkə iqtisadiyyatına 231 milyard dollar sərmayə qoyulmuşdur. Bu illər ərzində ölkəmizdə 1,9 milyon iş yeri yaradılmışdır ki, onlardan 1,4 milyonu daimi iş yeridir. Görülən işlər nəticəsində bu gün Azərbaycanda işsizlik 5 faiz, yoxsulluq isə 5,4 faiz səviyyəsindədir. Valyuta ehtiyatlarımız 23 dəfə artmışdır. Maaşlar orta hesabla 5 dəfə, pensiyalar 8 dəfə artıbdır. Yeni çəkilən 12,3 min kilometr müasir yollarda 443 körpü salınmışdır. Ölkə üzrə qazlaşdırmanın səviyyəsi 93 faizə çatdırılmış, əhalinin fasiləsiz içməli su ilə təminatı isə 67 faiz yüksəlmişdir. Bir sözlə, iqtisadiyyatın bütün sahələrində böyük uğurlara imza atılmışdır ki, onları sadalamaqla bitməz. Azərbaycanda son illər Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə gedən sürətli inkişafı, iqtisadi tərəqqini mötəbər maliyyə qurumları, təşkilatlar görür və yüksək qiymətləndirirlər. Həm Dünya Bankı, həm də Avropa Yenidənqurma və İnkişaf Bankı da bu inkişaf prosesini müsbət dəyərləndirirlər. DAVOS Ümumdünya İqtisadi Forumunun hesablamalarına əsasən Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətinə görə 2017-ci ildə iki pillə irəliləyərək, dünya miqyasında 35-ci yerdə qərar tutub, MDB məkanında isə lider mövqedəyik.

Azərbaycanda iqtisadi inkişafla paralel olaraq son dövrlər ölkəmizdə demokratik prinsiplərin dərinləşdirilməsinə, qanunçuluğun gücləndirilməsinə xidmət edən hüquqi-siyasi və demokratik islahatlar da inamla davam etdirilir. Ötən dövr ərzində, həmçinin məhkəmə-hüquq və ədliyyə sisteminin təkmilləşdirilməsi, vətəndaş hüquq-azadlıqlarının təmini mexanizminin daha da təkmilləşdirilməsi, vətəndaş cəmiyyəti təsisatlarının inkişafı təmin edilmişdir. Ötən 14 il ərzində ulu öndərin bu sahədə təməlini qoyduğu strateji kursu həyata keçirən ölkə başçısı cəmiyyətin bütün siyasi qüvvələrinin, sosial-qrupların, dini-etnik konfessiyalarının birliyinin təmin olunması istiqamətində də davamlı siyasət yürütmüşdür.

Son illər ölkəmizdə, dövlət qurumlarında şəffaflığın təmin olunması, korrupsiyaya qarşı mübarizə tədbirləri çərçivəsində yaradılmış, "ASAN xidmət" mərkəzləri az bir müddət ərzində ictimaiyyətin hörmət və etimadını, böyük inamını qazanmışdır və Azərbaycanın milli brendinə çevrilmişdir. Bu il "ASAN xidmət" mərkəzlərinin sayının 15-ə çatdırılması nəzərdə tutulub. Onların sayı gələn il 20-yə çatdırılacaqdır ki, bütün bunlar yerlərdə müştəri məmnunluğunu təmin edəcəkdir.



Qüdrətli və zəngin Azərbaycan, ərazi bütövlüyünün bərpası, iqtisadi tərəqqi və müasirləşmə, demokratik inkişaf, hər bir vətəndaşa sosial qayğı İlham Əliyev fəaliyyətinin təməl prinsipidir. Prezidentimiz qısa bir zaman kəsiyində Azərbaycanı təkcə regionda deyil, bütün dünyada sayılıb-seçilən dövlətə çevirdi. Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft-qaz boru kəmərlərinin həyata vəsiqə alması dövlət başçısının fəaliyyətinin ana xəttini təşkil etmişdir. Bütün bunlar ölkə iqtisadiyyatının dinamik inkişafını təmin etmişdir. Bu gün ölkəmiz cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə düşünülmüş daxili və xarici siyasətə, konkret iqtisadi proqramlara əsaslanaraq idarə olunur. Ölkə başçısının çevik, balanslaşdırılmış xarici siyasət kursu respublikamızın diplomatik mövqeyini yüksək dərəcədə gücləndirmişdir. Dünyada böyük nüfuz qazanan Azərbaycan dünyanın və Avropanın ən nüfuzlu beynəlxalq təşkilatları ilə sıx əməkdaşlıq edir. Ölkə son illərdə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmiş, AŞPA Nazirlər Komitəsinə rəhbərlik etmişdir. Bu gün Azərbaycan mötəbər, beynəlxalq təşkilatlarda layiqincə təmsil olunur. Dövlət başçısının müstəqil xarici və daxili siyasət yürütməsi ölkəmizin qüdrətinin və müstəqilliyinin ən bariz ifadəsidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın inkişafı tam, bitik, sistemli xarakter daşıyaraq tariximizə düşüb. Son illər ölkəmizin sürətli inkişafının nəticəsidir ki, Azərbaycanda mühüm beynəlxalq əhəmiyyətli tədbirlər reallaşdırılır, əzəmətli idman yarışlarına ev sahibliyi edirik. Bunlardan "Evrovision" mahnı müsabiqəsini, ilk Avropa Oyunlarını, IV İslam Həmrəyliyi Oyunlarını və bir sıra mötəbər beynəlxalq tədbirləri göstərmək olar.

Bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı ilə ən inkişaf etmiş sahələrdən biri də ölkənin nəqliyyat sektorudur. Bütün sahələrdə olduğu kimi, yol-nəqliyyat sektorunda genişhəcmli infrastruktur layihələri həyata keçirilmiş, yollarda yenidənqurma, müasirləşmə işləri uğurla aparılmışdır. Hazırda dövlət başçısının şəxsi nəzarəti ilə icra olunan layihələr davamlı olaraq həyata keçirilir. Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri layihələri uğurla reallaşdırılır ki, bu məqsədlə Prezident xüsusi sərəncam imzalamışdır. Şimali Avropa Cənub-Şərqi Asiya ilə birləşdirəcək bu dəhlizin tam istifadəyə düşməsindən sonra bu dəhliz üzərində yerləşən bütün ölkələrlə ticarət əlaqələrinin möhkəmləndirilməsinə və dəmir yolu daşımalarının, həmçinin xeyli dərəcədə artmasına şərait yaradacaqdır. Cənab Prezidentin təşəbbüskarı və dəstəkçisi olduğu Azərbaycan tarixində ən önəmli hadisələrdən biri də keçən ilin 30 oktyabrında istifadəyə verilən beynəlxalq əhəmiyyətə malik layihə Bakı-Tbilisi-Qars dəmir yoludur. Strateji əhəmiyyət kəsb edən bu yolun uzunluğu 850 kilometrdir ki, onun da 504 kilometri ölkəmizin ərazisindən keçir. Bu dəhliz Avropanı Asiya ilə birləşdirən ən qısa və etibarlı yoldur. Bu yol vasitəsilə birinci mərhələdə 5 milyon ton, sonrakı mərhələdə 17 milyon ton və daha sonrakı illərdə isə böyük həcmli yüklərin daşınması nəzərdə tutulmuşdur. Ələt Dəniz Ticarət Limanının 7-ci hissəsi istismara verilib və limanın bu ildə tam istifadəyə verilməsi nəzərdə tutulmuşdur. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərinin, TANAP layihəsinə start verilməsi, Trans-Adriatik boru kəmərinin tikintisi ilə bağlı razılaşmalar bundan sonra da neçə onilliklər ərzində Azərbaycanı çox mühüm və vacib beynəlxalq enerji mərkəzinə çevirəcəkdir. Ötən 14 ildə nəqliyyat sektorunun inkişafına dövlət tərəfindən böyük həcmdə investisiyaların qoyulması nəqliyyatın bütün növlərinin inkişafını təmin etmişdir.

Azərbaycan iqtisadi cəhətdən gündən-günə möhkəmlənir, öz qüdrətini artırır. Azərbaycan Prezidentinin yürütdüyü məqsədyönlü iqtisadi, sosial siyasətin nəticəsidir ki, ölkəmiz inkişaf etmiş dünya dövlətləri sırasında özünəlayiq yer tutub. Mən hər bir azərbaycanlının Prezidenti olacağam deyən cənab İlham Əliyev 14 ildə, doğrudanda, hər bir vətəndaşın Prezidentinə çevrildi və xalqa verdiyi bütün vədlərə öz əməli işi ilə cavab verdi.

Bildiyimiz kimi, Yeni Azərbaycan Partiyasının VI qurultayında 2018-ci il aprel ayının 11-də keçiriləcək növbədənkənar prezident seçkilərində YAP-dan cənab İlham Əliyevin namizədliyi irəli sürüldü və hamı tərəfindən yekdilliklə qəbul olundu. YAP-ın qəbul etdiyi bu qərarı bütün nəqliyyat sahəsində çalışanlar kimi, bizim kollektivimiz də dəstəkləyir və növbəti prezident seçkilərində ulu öndərin inkişaf və tərəqqi kursunu layiqincə davam etdirən, ölkəmizin və xalqımızın xoşbəxt gələcəyinin təminatçısı olan cənab İlham Əliyevə yekdilliklə səs verəcəkdir.

**Vüsal SADIQOV,**
**Azərbaycan Dəmir Yolları QSC**
**Xaçmaz Stansiyasının rəisi.**

# Vətənpərvər nəsil Azərbaycanın gələcəyidir

**"Mənim üçün ən əziz nemət Azərbaycanın uşaqlarıdır, gəncləridir. Çünki Azərbaycan Prezidenti kimi mən də bu gün Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm. Azərbaycanın gələcəyi isə Azərbaycanın gənclərindən və uşaqlarından asılıdır".**

**Heydər ƏLİYEV,**
**ümummilli lider.**

Hər bir millətin tərəqqisi onun gələcəyinin necə qurulmasından asılıdır. Gələcəyi isə gənclər qurmalıdırlar. Məhz buna görə də gənclik öz soy-kökünə bağlı, milli-mənəvi dəyərlərə sadiq, əyilməz və tükənməz bir güc sayılır və hər bir millətin mövcudluğu üçün də sağlam gəncliyin olması vacib şərtdir. Çünki ölkədə dövlətçiliyin və müstəqilliyin daha da möhkəmləndirilməsi və gələcəyin etibarlı təminatı intellektual səviyyəli potensial kadrların yetişdirilməsindən və onların aparıcı qüvvəyə çevrilməsindən asılıdır. Məhz bu baxımdan respublikamızda gənclərlə iş sahəsində görülən tədbirlər Azərbaycan gəncliyinin daha da inkişaf etməsinə təkan verir və gənclərimizin cəmiyyətdə təsdiq olunmaları üçün şərait yaradır. Qeyd edək ki, Azərbaycanda həyata keçirilən dövlət gənclər siyasətinin başlıca məqsədi gənc nəslin Vətənə məhəbbət ruhunda tərbiyə olunmasıdır. Ona görə də ulu öndərimiz Heydər Əliyev gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasını təhsil sisteminin qarşısında duran ən mühüm vəzifə hesab edərək deyirdi: "İndi bizim təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib, onları gələcəyə hazırlamaqdır. Amma, bununla yanaşı, ən böyük məqsədi Azərbaycan vətəndaşı hazırlamaqdır, müstəqil Azərbaycan cəmiyyətinin ləyaqətli üzvünü hazırlamaqdır... Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, Vətən torpağına, millətə sədaqət, vətən uğrunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də öz çıxışlarında uşaq və gənclərin vətənpərvərlik tərbiyəsinin vacibliyini dönə-dönə vurğulayıb, bu işin dövlətin təhsil, gənclər siyasətinin prioritet məsələlərindən biri olduğunu diqqətə çatdıraraq deyib: "Biz böyüməkdə olan nəslin vətənpərvərlik ruhunda, milli-mənəvi dəyərlərimiz ruhunda tərbiyə edilməsinə çox böyük əhəmiyyət veririk. Bu, bizim inkişafımızın əsası, hər bir xalqın inkişafının əsasıdır".

Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri Ə.Həsənov KİV-ə açıqlamasında bildirib ki, Azərbaycanın gəncliyi ölkə tarixinin tərkib hissəsidir və gənclər dövlət quruculuğu prosesində aktiv iştirak edirlər: "Əminiklə deyə bilərəm ki, gənclərə baxanda optimist rəyə gəlmək olar. Hazırda ölkəmizdə vətənpərvər nəsil yetişib. Bu, çox önəmli işdir. Bu gün Azərbaycan millətinə, dövlətinə bağlı gənclər formalaşıb. Azərbaycanın gənci dünya elminə yiyələnməlidir, onu mənimsəməlidir və ölkəmizdə tətbiq etməlidir. Dövlətin verdiyi dəstək göstərir ki, gənclər Azərbaycan dövlətini təmsil etməyə hazırdır. Artıq təmsil edirlər. Bu gənclər müstəqillik illərində formalaşıblar. Bu gəncliklə gələcəyə ümidlə baxırıq. Azərbaycanın əldə etdiyi uğurlardan biri də vətənpərvər gənclərin yetişməsidir. Azərbaycanın bundan sonrakı inkişafı gənclərin əlindədir. Biz inanırıq ki, gənclər bunun öhdəsindən gələcəklər".

Qeyd edək ki, "Bölgələrdə yaşayan əhalinin böyük əksəriyyəti yalnız öz bölgəsinin inkişafını görür. Ona görə, arzu edirəm ki, çalışın, Azərbaycanın hər bir yerində olun və görün ki, doğrudan da, Azərbaycan gözəl ölkədir. Həm təbiət müxtəlifliyi, eyni zamanda, mədəniyyət müxtəlifliyi vardır. Bu, bizim böyük üstünlüyümüzdür, böyük sərvətimizdir" deyən Prezident İlham Əliyevin bu tövsiyəsi nəinki gənclərin, yeniyetmələrin ürəyindən xəbər verdi, bütövlükdə Azərbaycanı sevən hər kəsi səfərbər etdi, bir məqsəd ətrafında cəmləşdirdi, "Ölkəmizi tanıyaq" adlı yeni bir layihənin təməlini qoydu. Bu layihə Azərbaycanı yeniyetmələrə təqdim etmək, tanıtmaq və sevdirmək, ölkəmizin tarixinin, mədəniyyətinin, adət-ənənələrinin, müstəqillik illərində əldə edilmiş nailiyyətlərin dərindən öyrənilməsində, tədrisdə qazanılan nəzəri biliklərin möhkəmləndirilməsində mühüm amillərdən biri olacaq, səfərin xoş təəssüratları şagirdlərin mənəvi zənginliyini daha da artıracaq və Azərbaycanın yeni nəslinin vətənpərvərlik ruhunda tərbiyəsində mühüm rol oynayacaq bir addım idi. Bu, Prezident İlham Əliyevin təşəbbüsü, tapşırığı və nəzarəti ilə həyata keçirilən, Azərbaycanın sabahını düşünərək reallaşdırılan bir layihə idi. Bu, dövlət başçısının gənclərə həssas münasibətinin, diqqət və qayğısının daha bir nümunəsi idi. Bu səbəbdən də həmin layihə tez bir zamanda diqqət çəkdi, ölkənin ictimai və mədəni həyatında mühüm hadisəyə çevrildi. Beləliklə, Prezident İlham Əliyevin tapşırığına əsasən, Azərbaycanın şəhər və rayonlarının 9-11-ci sinif şagirdlərinin ölkəmizi daha yaxından tanıması, onun tarixini, mədəniyyətini, adət-ənənələrini dərindən öyrənməsi, tarixi-mədəni irsimizə sədaqət və hörmət ruhunda tərbiyə olunması, müstəqillik illərində qazanılan nailiyyətləri öz gözləri ilə görmələri üçün 2014-cü ilin avqust ayından başlayaraq Prezident Administrasiyasının Regional idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin təşkilatçılığı ilə şəhər və rayon icra hakimiyyətləri tərəfindən bölgələrə maarifləndirici tur-aksiyalar təşkil olundu. "Ölkəmizi tanıyaq" adı altında 4 mərhələdə 7 istiqamət üzrə keçirilən maarifləndirici tur-aksiyalar Azərbaycanın dörd qütbünü bir nöqtədə birləşdirdi. Naxçıvan Muxtar Respublikası da daxil olmaqla, ümumilikdə 74 şəhər və rayondan 5155 şagird maarifləndirici tur-aksiyalarda iştirak etdi. Xalqımızın milli-mədəni irsi ilə tanış olan yeniyetmələr, eyni zamanda, bölgələrimizin müasir simasını əks etdirən Heydər Əliyev mərkəzlərində, tarixdiyarşünaslıq muzeylərində və digər görməli yerlərdə oldular. Maarifləndirici tur-aksiyaların proqramı zəngin və əhatəli idi. Azərbaycanın qədim tarixi yerlərinə ekskursiyalar, maddi-mədəniyyət nümunələri, memarlıq abidələri, dini dəyərlərimizi özündə yaşadan müqəddəs məkanlarla tanışlıq, xalqımızın tolerantlığının təsdiqi olan guşələrə, eyni zamanda rayonların müasir görkəmini əks etdirən yerlərə səfərlər təşkil olundu. Tur-aksiyanın proqramı təkcə bölgələrin sosial-iqtisadi, tarixi-mədəni həyatı ilə tanışlıqla bitmədi. Aksiyalar zamanı məktəblilərin asudə vaxtlarında "Nə? Harada? Nə vaxt?" intellektual oyunları keçirildi, qaliblərə xatirə hədiyyələri təqdim edildi, onlar üçün teatr tamaşaları və konsert proqramları təşkil olundu, tədbirlər çərçivəsində iştirakçılar tərəfindən xüsusi hazırlanmış yerlərdə minlərlə ağac əkildi. Bir sözlə, bu layihə məktəblilərin dünyagörüşünün daha da zənginləşməsinə, gənclərin vətənpərvərlik və azərbaycançılıq prinsipləri əsasında, tarixi-mədəni irsimizə hörmət ruhunda tərbiyə olunmasına böyük töhfə verdi. Tur-aksiyalar zamanı regionlara səyahət edən şagirdlərdə həm də xalqımızın malik olduğu çoxəsrlik tolerantlıq, multikultural dəyərlər barədə hərtərəfli təsəvvür formalaşdı.

Nizami Rayon İcra Hakimiyyətinin başçısı Arif Qasımov KİV-ə bildirib ki, məktəblilərin sağlam ruhda böyüməsi və tərbiyə alması üçün respublikamızda hər cür şərait yaradılıb, gənclər siyasəti dövlət siyasətinin tərkib hissəsi olmaqla prioritet sahələrdən birinə çevrilib: "Prezident İlham Əliyevin tapşırığı ilə respublikamızın şəhər və rayonlarının ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri üçün "Ölkəmizi tanıyaq" adı altında keçirilən tur-aksiya məktəblilərin dünyagörüşünün daha da zənginləşməsinə, gənclərin vətənpərvərlik və Azərbaycançılıq prinsipləri əsasında, tarixi-mədəni irsimizə hörmət ruhunda tərbiyə olunmasına böyük töhfə verib. Eyni zamanda, məktəblilər Azərbaycanın müxtəlif bölgələrinin tarixi, mədəni irsi, adət-ənənələri, özünəməxsus xüsusiyyətləri ilə yaxından tanış olub və gündən-günə abadlaşan şəhər və rayonlarımızın yeniləşən siması barədə gənclərdə əyani təsəvvür yaranıb".

Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov isə KİV-ə açıqlamasında deyib ki, doğma Azərbaycanın ayrı-ayrı guşələrinin rayon məktəbliləri tərəfindən daha yaxşı tanınması, o cümlədən onların bölgələrimizin zəngin turizm potensialı, tarixi-mədəni abidələri, muzeyləri ilə tanış olması baxımından maarifləndirici tur-aksiyaların əhəmiyyəti çox böyükdür: "Ona görə də Nəsimi Rayon İcra Hakimiyyəti tərəfindən yeniyetmələr üçün respublikamızın dilbər güşələrində hərbi vətənpərvərlik təmayüllü yay istirahət düşərgələrinin təşkil olunması nəzərdə tutulub".

Milli Məclisin deputatı Sədaqət Vəliyeva çıxışlarından birində vurğulayıb ki, xalqımızın gələcəyi olan uşaqlara dövlət qayğısı artırılıb və gənc nəslin hərtərəfli inkişafı üçün hərtərəfli şərait yaradılıb: "Təşkil edilən bu aksiyanın məktəblilərin tariximizi, mədəniyyətimizi öyrənmək üçün gözəl bir fürsətdir və bu, ölkəmizdə dövlətinə, xalqına, milli-mənəvi dəyərlərinə bağlı savadlı, vətənpərvər bir nəsli yetişdirir".

Bərdə rayon 4 saylı orta məktəbin müəlliməsi Vüsalə Ağayeva bildirir ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə reallaşan və hər kəs tərəfindən bəyənilən "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiyaları gənc nəslin fiziki, mənəvi-psixoloji cəhətdən sağlam yetişməsi, onların tərbiyəli, savadlı və vətənpərvər böyüməsi istiqamətində görülən işlərə və şagirdlərin dünyagörüşünün yüksəlməsində göstərilən dövlət qayğısından, həmçinin gənc nəslin hərtərəfli inkişafı üçün təşkil olunmuş layihədir: "Bu layihə gənclərin vətənpərvərlik tərbiyəsinin daha da yüksəldilməsində mühüm rol oynayır. Bu aksiya ölkəmizin tarixinin, mədəniyyətinin, adət-ənənələrinin, müstəqillik illərində əldə edilmiş nailiyyətlərin dərindən öyrənilməsində, tədrisdə əldə edilən nəzəri biliklərin möhkəmləndirilməsində mühüm amillərdan biridir və səfərin xoş təəssüratları şagirdlərin mənəvi zənginliyini daha da artırır".

8-ci sinif şagirdi Zeynəbxanım Məhərrəmli isə deyir ki, məktəblilər üçün nəzərdə tutulan bu gözəl layihə, şagirdlərin dünyagörüşünü və savadını çox artırır. Ölkəmizin ayrı-ayrı bölgələri ilə yaxından tanışlıq şagirdlər üçün çox maraqlıdır: "Səfərlər və tarixi abidələrlə yaxından tanışlıq biliklərimizin genişlənməsi üçün böyük təkandır. Ölkəmizi daha yaxından tanımaq və öyrənmək üçün biz şagirdlərə yaratdığı şəraitə və diqqətə görə ölkə başçısına dərin təşəkkürümüzü bildiririk. Həmişə dövlətimizə layiq olmağa və ölkəmizi layiqli təmsil etməyə çalışacağıq".

**Müşfiq CƏFƏROV,**
**"Respublika".**

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün.*

## Ötən ilin yekunları

*Ağdaş:*

# Görülmüş işlər ürəkaçandır




**Yanvar ayının 10-da ölkə başçısı cənab İlham Əliyevin sədrliyi ilə 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrin müşavirədə daxildə sabit siyasi vəziyyətə, daim islahatlarla təkmilləşdirilən cəmiyyətin marağına cavab verən siyasi sistemin davamlı iqtisadi inkişafa nail olan ölkəmizin yeni-yeni uğurlarından söhbət açılmışdır.**

Bu yaxınlarda rayon icra hakimiyyətində keçirilən geniş şura iclasında da bu barədə ətraflı müzakirələr getmişdir. **Ağdaş Rayon İcra Hakimiyyətinin başçısı Tofiq İbrahimovun** hesabat məruzəsi dinlənilmişdir. Qeyd olunmuşdur ki, hesabat ili ərzində Ağdaş rayonunda da sosial-iqtisadi inkişafa nail olunması sahəsində mühüm tədbirlər görülmüşdür.

Ötən il ərzində həyata keçirilmiş tədbirlər nəticəsində rayonda 278 milyon manatlıq ümumi məhsul istehsal edilmişdir. İstehsal olunmuş məhsulun rayon əhalisinin hər nəfərinə düşən həcmi 2 min 553 manat təşkil etmişdir.

Bu dövrdə 114 milyon manatlıq kənd təsərrüfatı məhsulu, 8.6 milyon manatlıq sənaye məhsulu istehsal edilmiş, 42 milyon manatlıq tikinti-quraşdırma işləri görülmüş, 113 milyon manatlıq ticarət, nəqliyyat, rabitə və digər xidmətlər göstərilmişdir.

Görülmüş işlərin nəticəsi olaraq 2017-ci ildə də Ağdaş rayonuna 600 min manatı xarici olmaqla 14 milyon 964 min manat özəl investisiya qoyulmuşdur.

Hesabat dövründə ölkəmizdə kənd təsərrüfatının strateji sahələrinin inkişaf etdirilməsi ilə bağlı möhtərəm Prezidentimiz cənab İlham Əliyevin qəbul etdiyi müdrik qərarlar, verdiyi tapşırıq və tövsiyələr əsasında 2017-ci ildə rayonda ixracyönümlü kənd təsərrüfatı sahəsi olan pambıqçılığın inkişafı istiqamətində mühüm işlər görülmüşdür. Pambıq əkini aparılması nəzərdə tutulmuş torpaq sahələrinin zəruri infrastrukturu yaradılmış, rayonda 77 fermer 3000 hektar pambıq əkini üçün müqavilə bağlamışdır. Çəltikçiliyin əkin sahəsi genişləndirilərək 2454 hektar sahədə çəltik əkilmiş, 8245 ton məhsul əldə olunmaqla məhsuldarlıq 33.6 sentner olmuşdur.

Çəltikçiliyin daha geniş şəkildə, sürətlə inkişaf etdirilməsi elmi əsaslara söykənən yerli toxumçuluq təsərrüfatlarının yaradılmasını və bu sahəyə xarici investorların cəlb edilməsini zəruri etmişdir.

Hesabat ili ərzində 111 nəfər kümçü tərəfindən 6 min 418 kq barama təhvil verilmiş, onlara 57 min 764 manat vəsait ödənilmişdir. Ümumilikdə, baramaçılıq sahəsindən 50768.0 manat gəlir əldə edilmişdir.

Rayonun suvarılan torpaq sahələri Türyançay və Kür çayları, həmçinin Yuxarı Şirvan kanalı vasitəsilə suvarılır. Rayonun ərazisindən keçən Yuxarı Şirvan kollektoru qrunt və digər şoranlaşmış suların axıdılmasını təmin edir.

Rayonun suvarılan torpaqlarından 73,9 faizi Ağdaş Rayon Suvarma Sistemləri İdarəsi tərəfindən öz axını ilə, 26,1 faizi isə Pirəzə Mexaniki Suvarma idarəsi tərəfindən mexaniki üsulla suvarılır.

2017-ci il ərzində rayonda 30 məktəbəqədər tərbiyə müəssisəsi, 67 ümumtəhsil məktəbi, 1 gimnaziya, 2 məktəbdənkənar müəssisə, 1 Peşə məktəbi, 1 orta ixtisas təhsili müəssisəsi olan Dövlət Humanitar Kolleci fəaliyyət göstərmişdir.

Hesabat dövrü ərzində rayon əhalisinə Ağdaş Rayon Mərkəzi Xəstəxanası, Ləki qəsəbə xəstəxanası, Ağciyər xəstəlikləri Xəstəxanası, 2 ambulator poliklinika, 12 kənd həkim məntəqəsi, 48 kənd tibb məntəqəsi tibb xidməti göstərmişdir.

"Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfransda Möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən respublika iqtisadiyyatında əldə edilən uğurların davam etdirilməsi məqsədilə qeyri-neft sektorunun inkişafı, kənd təsərrüfatı məhsullarının, xüsusilə də ixracyönümlü kənd təsərrüfatı məhsullarının istehsalı, investisiya qoyuluşunun həcminin artırılması, bir sıra sosial layihələrin başa çatdırılması hədəf kimi götürülmüşdür.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin özünün konstitusion hüquqlarından istifadə etməklə, cari ilin aprel ayının 11-də növbədənkənar Prezident seçkilərinin elan edilməsi ilə bağlı sərəncamı bütün ölkədə olduğu kimi, rayonun ictimai-siyasi həyatının əsas mövzularından biri olmaqla maraqla qarşılanmışdır. Dövlət başçısının müstəqillik dönəmi ərzində atdığı bu cəsarətli addım dünyada böyük rezonans doğurmuşdur.

Sonra məruzə ətrafında müzakirələr olmuşdur.

**İlham PƏNAHOV,**
**"Respublika".**

*Yevlax:*

# İQTİSADİ İNKİŞAF TƏMİN OLUNUB




**Yevlax Şəhər İcra Hakimiyyətində 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş tədbir keçirilmişdir.**

Yığıncağı giriş sözü ilə açan **Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı Qoca Səmədov** sosial-iqtisadi inkişafın uğurları barədə ətraflı məlumat verdi. Qeyd etdi ki, yevlaxlılar əvvəlki illərdə olduğu kimi, 2017-ci ildə də şəhərin hərtərəfli inkişafı üçün bütün qüvvələri səfərbərliyə almışlar.

Şəhər üçün ən əlamətdar hadisə isə, Prezident İlham Əliyevin keçən ilin aprel ayında şəhərə növbəti səfəri və səfər zamanı bir sıra obyektlərin açılışında iştirakı olmuşdur. Ölkə Prezidenti Balıq Yetişdirmə müəssisəsinin, Varvara SES-in yenidənqurmadan sonra işə salınması və Salahlı-Balçılı-Ağqıraq-Varvara-Cırdaxan və Yevlax şəhərinə giriş yolunun istifadəyə verilməsi tədbirlərində iştirak etməsidir.

2017-ci ildə ümumdaxili məhsulun həcmi 658.4 milyon manat olmuşdur.

Hər nəfərə 5171 manat ümumdaxili məhsul istehsal olunmuşdur. Hesabat dövründə ümumilikdə 85,7 milyon manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur. 2017-ci ilin məhsulu üçün 220,5 ha kartof, 392,9 ha bostan və tərəvəz, 771,5 ha soya, 644,2 ha günəbaxan əkilmişdir. 2016-cı ilə nisbətən əkilən sahədə 213,2 hektar artım olmuşdur. Eyni zamanda, 96.5 ha çəltik əkilmiş, 2016-cı ilə nisbətən 80,5 ha artım olmuş və məhsuldarlıq 26.4 sentner olmaqla 255 ton məhsul toplanmışdır.

2017-ci ildə iribuynuzlu mal-qaranın baş sayı 67575 olmuşdur. Hesabat ilində quşların sayı 643 baş artaraq 455399 baş olmuşdur. Cari ildə 8977.0 ton ət, 36560.0 ton süd, 16236 min ədəd yumurta və 333.9 ton yun istehsal olunmuşdur.

2017-ci il ərzində Yevlax Suvarma Sistemləri idarəsi tərəfindən suvarma kanalları üzərində olan 98 ədəd hidrotexniki qurğularda cari təmir işləri aparılmışdır. 28 ədəd nasos stansiyalarında mexaniki və elektrik avadanlıqlarının təmir işləri aparılıb başa çatdırılmışdır.

2017-ci ildə 2160 hektarda pambıq əkilmiş, 3417 ton pambıq istehsal olunmuşdur. 2018-ci ildə pambıq əkin sahəsinin 2500 hektara çatdırılması nəzərdə tutulmuşdur. 2017-cı ildə 5.6 tona yaxın barama istehsal olunmuş, cari ildə 10 tona çatdırılması nəzərdə tutulmuşdur. 10 hektarda fındıq tingi əkilmişdir.

"Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"nə uyğun olaraq pambıq, taxıl istehsalının artırılması və digər bitkiçilik sahələrinin inkişaf etdirilməsi üçün Yevlax rayonunun Aran qəsəbəsi ərazisində 4000 hektar torpaq sahəsində Yevlax "Aqro-Park" MMC yaradılmışdır.

2017-ci ildə 2241 iş yeri açılmışdır. Onlardan 1376-sı daimidir. Ümumilikdə 2003-cü ilin oktyabr ayından 2017-ci ilin sonunadək 22145 iş yeri yaradılmışdır ki, onlardan 14120-si daimi iş yerləridir.

2017-ci ildə şəhərdə 7 ədəd beşmərtəbəli, 1 ədəd üçmərtəbəli, 19 ədəd ikimərtəbəli, 1 ədəd birmərtəbəli, cəmi 28 ədəd yaşayış binasının dam örtükləri dəyişdirilmişdir. 4 ədəd binanın fasadları təmir olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 24 fevral 2017-ci il tarixli Sərəncamına əsasən rayonun 12 kəndində əhalini ekoloji cəhətdən içməli su ilə təmin etmək məqsədilə modul tipli içməli su təmizləyici qurğular quraşdırılmış, bulaqlar və su xətləri çəkilmişdir. Hazırda sınaq işləri aparılır.

Şəhərdə və rayon ərazisində əhalinin və istehsalat sahələrinin fasiləsiz və dayanıqlı elektrik enerjisi ilə təmin olunması həyata keçirilmişdir.

Yevlax şəhərində və kəndlərdə ümumi abonentlərin 95 faizi təbii qaz ilə təmin olunmuşlar. Şəhər də daxil olmaqla 50 yaşayış məntəqəsindən 43-ü qazlaşdırılmışdır.

Ali məktəblərə qəbul olunanlardan 9 nəfəri 600-dən, 39 nəfəri 500-dən çox bal toplamışdır. 600-dən çox bal toplayanlar şəhər 2, 5, 7, 8, 9 nömrəli, Aran qəsəbə 2 №-li, Qaramanlı kənd tam orta məktəblərin məzunları olmuşlar. Rayon üzrə ən yüksək göstərici - 681 bal toplayan şəhər 5 №-li tam orta məktəbin məzunu Nigar Məmmədovadır.

Həyata keçirilən tədbirlərin nəticəsidir ki, 2017-ci ildə C.Naxçıvanski adına hərbi liseyə 2016-cı ildən 11 nəfər çox, 13 şagird qəbul olunmuşdur. Məzunlardan 8 nəfəri müxtəlif ali hərbi məktəblərə daxil olmuşdur.

Ölkəmizin hər bir bölgəsində olduğu kimi, 2017-ci ilin fevral ayının 15-dən may ayının 1-dək əhalinin kütləvi tibbi müayinəsi keçirilmişdir. Müayinə dövründə əhalinin 67901 nəfəri tibbi müayinədən keçmişdir. Azərbaycan Respublikası Prezidentinin gənclər siyasəti istiqamətində həyata keçirdiyi uğurlu siyasətin nəticəsidir ki, gənclər ölkədə gedən proseslərdə yaxından iştirak edir və bəhrələnirlər. Şəhər Gənclər və İdman İdarəsi tərəfindən gənclər siyasəti üzrə 34, bədən tərbiyəsi və idman sahəsi üzrə 26 tədbir keçirilmiş, bu tədbirlərdə 7031 nəfər yeniyetmə və gənc iştirak etmişdir.

Çıxışının sonunda Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı Qoca Səmədov qeyd etdi ki, cənab Prezidentin Nazirlər Kabinetinin iclasındakı nitqində 2017-ci ildə görülmüş işlərə yüksək qiymət verməklə yanaşı, hər birimizin qarşısında mühüm vəzifələr qoymuş, dəyərli tövsiyə və tapşırıqlarını vermişdir. Ötən illərdə görülən irihəcmli işlər, bundan sonra da şəhərin inkişafı üçün lazım olan bütün tədbirlərin görülməsinə imkan verir. Bu baxımdan, tam əminliklə demək olar ki, yeni iş yerlərinin yaradılması, aqrar sahənin inkişaf etdirilməsi sosial-mədəni quruculuq işlərinin davam etdirilməsi fəaliyyətimizin prioritet istiqamətləri olacaq.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

*Qəbələ:*

# Sosial-iqtisadi uğurlar




Səksəninci illərin sonunun, doxsanıncı illərin lap əvvəlinin tənəzzülə uğrama mərhələsini göz önünə gətirib bu günüylə dünənini, lap elə yaxın keçmişini yan-yana qoyub müqayisə edəndə Qəbələnin nə qədər sürətli, mənalı, zəngin yol keçdiyini aydın görürük. Görürük və bizə gün kimi aydın olur ki, ulu öndərin ikinci dəfə ali hakimiyyətə gəlişi Azərbaycanımızın şimal bölgəsində ünvanlanan, dövrəsindəki dağlar kimi gözəl, həm də vüqarlı, əzəmətli, əsrlərin sirlərini sinəsində yaşadan Qəbələ sözün həqiqi mənasında ən uca zirvənin lap astanasındadır. Keçdiyi inkişaf yolunun ürəkləri riqqətə gətirən uğurlarını, sabahın daha əzəmətli vəzifələrini təhlil edəndə respublikanın bu dağ rayonunun artıq dünyanın hər yerindən gələn inkişaf sorağını eşidirik. Artıq ölkəmizin sərhədlərini aşıb dünyanı dolaşan xoş soraqlar vətən, torpaq üçün döyünən ürəkləri dağa döndərir. Bu inkişaf yolunu böyük ilhamla, coşqunluqla keçən yolçularının əllərindən tutub daha ucalara aparanlara eşq olsun deyirsən. Ulu öndər Heydər Əliyevin uzaqgörən strategiyasını inamla davam etdirən ölkə Prezidenti İlham Əliyevin yorulmaz, fəaliyyəti hər bir Azərbaycanlının ürəyini qürurlandırır, fərəhləndirir. Rayon icra hakimiyyətinin bu günlərədə keçirilən geniş tərkibli şura iclasında hesabat məruzəsi ilə çıxış edən icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev bu uğurlardan ətraflı söhbət açmışdır.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və təşkilatçılığı ilə hər il keçirilən Qəbələ Beynəlxalq Musiqi Festivalı dünyaya çıxışın ən uğurlu faktlarındandır. Hər il onlarca ölkənin görkəmli musiqiçilərinin Qəbələyə gəlişi və bu gəlişlərdə olan iştirakçıların sayı, onların öz yerlərinə qayıtdıqdan sonra bu gözəl məkan haqqında olan təəssüratları görün sözügedən rayonun şan-şöhrətini nə qədər artırır, onun adını, inkişafını dünya xalqlarının dilində əzbərə çevirir. Ötən ilin avqustunda Qəbələ Rayon İcra Hakimiyyətinin təşəbbüsü və təşkilatçılığı ilə keçirilən Qəbələ Beynəlxalq Mürəbbə festivalında dünyanın 22 ölkəsinin, həmçinin respublikanın 44 şəhər və rayon şirniyyatçılarının iştirak etməsi, yalnız ötən il ərzində SEBA (Seul-Baku) Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının və Koreya Respublikasının ölkəmizdəki səfirliyinin birgə təşkilatçılığı altında tədbirlərin keçirilməsi, "Aziranq" - "Azərbaycanın qəlbini coşdur" adlı mədəniyyət festivalının "Qəbələ" arxeologiyası mövzusunda beynəlxalq elmi seminarları, Heydər Əliyev Fondunun Vitse Prezidenti Leyla xanım Əliyevanın iştirak etdiyi vətənpərvərlik mövzusuna həsr olunan "Poeziya günü" və digər bu kimi çoxsaylı tədbirlər Qəbələnin dünyaya tanışlığına sanballı təkandır.

Qəbələ özünün idman arenasına görə də indi dünya xəritəsində xüsusi yer tutur. Güllə atıcılığı üzrə 45 ölkədən 700-dək idmançının iştirak etdiyi dünya kuboku yarışlarını, "Gənc xilasedici" Beynəlxalq yarışını, "Wonderland 2017-Azərbaycan" Beynəlxalq Skaut Düşərgəsini, 132 ölkədən seçilmiş 320 nəfər nümayəndənin iştirakı ilə XIII Dünya Skaut Gənclər Forumunun və onlarca digər başqa tədbiri də buna misal göstərmək olar.

Özünün sosial-iqtisadi inkişafının zirvəsində dayanan artıq dünyanın inkişaf edən dövlətləri ilə bir siyahıda qərarlaşan respublikamız kimi, Qəbələ də dünyaya çıxışı, dünya dövlətləri ilə sıx ünsiyyət və əlaqəsi ilə seçilir. 2017-ci ildə Qəbələyə gələn xarici ölkə dövlət rəsmilərinin sayı əvvəlki illərdəkinə nisbətən xeyli artmışdır.

Bəli, dünyaya çıxış, dünyanı Qəbələyə gətirmək rayonun sosial-iqtisadi həyatında önəmli rol oynamışdır. Respublikaya, o cümlədən Qəbələyə turist axını əvvəlki illərdəkinə nisbətən çoxalmış, rayonun ixracyönümlü fəaliyyətində xeyli dönüş yaranmışdır. İndi Qəbələnin bir neçə sənaye müəssisəsi – o cümlədən "Gilan" Qəbələ Konserv zavodu, "Gilan" Qəbələ Yeyinti Məhsulları İstehsalı ASC, "Aqro-Azərinvest" MMC-nin Şərab Məhsulları Müəssisəsi "ASPİ AQRO" MMC-nin Şərab zavodu və digər başqaları öz məhsulları ilə dünyanın ayrı-ayrı ölkələri ilə əlaqə saxlayırlar. Məhz bu hesaba Qəbələ kəndlisi də, fermeri və başqa-başqa iş adamları da yaxşı işlədikləri kimi, yaxşı da qazanmaq, dolanmaq imkanı qazanırlar.

Azərbaycanın ikinci turizm mərkəzi olan Qəbələdə bu istiqamətdə də genişmiqyaslı işlər görülür. 2015-2017-ci illərdə birlikdə Qəbələyə ancaq 216 min 333 xarici turist gəlmişdir. Özünün gənclik dövrünü yaşayan qədim Qəbələ sürətlə inkişaf edib ən gözəl turizm məkanına çevrilib. Dünyaya çıxan Qəbələ dünyanın yaxın uzaq ünvanlarından gələn qonaqlarını "Qafqaz Resort", "Qafqaz Riverside", "Qafqaz Tufandağ Mountain Resort", "Qafqaz Sport", "Qafqaz Karvansaray", "Chenot Palace", "Qafqaz Qabala City", "Qafqaz Yeddigözəl" hotellərində, "Qəbələnd" istirahət və əyləncə mərkəzində, "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksində, "Sərin Meşə", "Duyma", "Çənlibel", "Soyuq Bulaq" otel və istirahət mərkəzlərində qarşılayır, onlara hər cür xidmət göstərilir.

Qəbələnin bugünkü inkişafı, dünya xəritəsində özünəlayiq yer tutması Azərbaycanımızın şöhrətinin daha da artmasının parlaq təzahürüdür. Yolun işıqlı, şöhrətin əbədi olsun, qədim və gənc Qəbələ. Ötən ilin yekunlarına həsr olunan hesabat yığıncağı bu gözəl notların təntənəsi ilə başa çatdı.

**Rasim AMANOV,**
**"Respublika".**

*Ağcabədi:*

# Möhkəm təməl üzərində

**Qədim tarixi olan Ağcabədi həm də yeni və müasir şəhər statusunu daşıyır. Şəhərin hüdudları genişlənir və burada aparılan yenidənqurma işlərinin miqyası durmadan artır. Ağcabədi indi həm sənaye, həm kənd təsərüfatı, həm ticarət və həm də mədəniyyət mərkəzinə çevrilib. Bunun üçün rayonda möhkəm təməl yaradılıb. Qəti və prinsipial idarəetmə, vətəndaşlarla səmimi və isti münasibət, görülən işlərə ciddi nəzarət, möhkəm nizam-intizam, qurub yaratmaq əzmi, ciddi məsuliyyət və cavabdehlik.**



Rayonda belə bir xoş ovqat üzərində 2017-cı ilin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağı keçirilib. Yığıncaq iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılan abidəsi önünə gül-çiçək düzüb, sonra mədəniyyət mərkəzinin foyesində Ağcabədidə istehsal edilən məhsulların sərgisinə, rayonun sosial-iqtisadi inkişafını əks etdirən stendlərə və videoçarxa baxıblar.

Rayon icra hakimiyyətinin başçısı Şahin Məmmədovun məruzəsində qeyd edilən faktlar bir daha onu göstərir ki, rayonda sosial-iqtisadi inkişafın miqyası durmadan genişlənir və əhalinin həyat şəraiti əvvəlki illərə nisbətən daha da yaxşılaşır. İndi ən ucqar kənddə belə tikinti-quruculuq işləri aparılır. Haqlı olaraq, dövlətimizin başçısı İlham Əliyev qeyd edib ki, Azərbaycanın inkişafı insanların həyat şəraiti ilə üst-üstə düşür. Elə bir gün olmur ki, istehsal müəssisəsi, fabrik, zavod işə düşməsin, ən əsası isə insanlar yeni iş yerləri ilə təmin olunurlar.

2017-ci il ağcabədililər üçün Prezident İlham Əliyevin noyabrın 28-də Ağcabədiyə səfəri ilə yaddaqalan və əlamətdar olub. Dövlətimizin başçısı səfər zamanı Bayraq Muzeyinin, Ağcabədidə inşa edilmiş körpələr evi-uşaq bağçasının, Olimpiya İdman Kompleksinin, çörək və un məmulatları zavodunun və Tarix-Diyarşünaslıq Muzeyinin yenidənqurmadan sonra açılışında iştirak edib. Səfərdən sonra Ağcabədi şəhərində çoxmənzilli binaların əsaslı təmiri və abadlıq-quruculuq işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalanıb. Hesabat dövründə "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası istiqamətində ardıcıl tədbirlər görülüb. Ağcabədi şəhərində abadlıq-quruculuq işləri davam etdirilib, Aran kənd 1 saylı körpələr evi-uşaq bağçasının, rayon elektrik şəbəkəsinin inzibati binasının və Rəncbərlər kəndi ərazisində pambıq qəbulu məntəqəsinin tikintisi başa çatdırılaraq istifadəyə verilib, Yuxarı Qiyaməddinli və Hacılar kənd tam orta məktəbləri əsaslı təmir olunub.

Diqqətə çatdırılıb ki, ötən il rayonda iqtisadiyyatın əsas sahələri üzrə məhsul buraxılışının həcmi 481.111,5 min manat olub. Bu, əvvəlki illə müqayisədə 1,7 dəfə çoxdur. Bu dövrdə 29.368,7 min manatlıq sənaye, 166.126,2 min manatlıq kənd təsərrüfatı məhsulları istehsal edilib, əsas kapitala 212.010,9 min manat investisiya yönəldilib, 203.685,3 min manatlıq tikinti işləri görülüb. 2016-cı illə müqayisədə sənaye məhsulları istehsalı 1,9 dəfə, kənd təsərrüfatı məhsulları istehsalı 9,7 faiz, əsas kapitala yönəldilən investisiyalar 5 dəfə, tikinti işləri 5,2 dəfə artıb. İl ərzində 3302-si daimi olmaqla, 5244 yeni iş yeri açılıb.

Yığıncaqda aqrar sahədə əldə olunan uğurlardan danışılarkən bildirilib ki, ötən il rayonda 59 min 126 ton buğda, 10 min 308 ton arpa, 58 min 50 ton şəkər çuğunduru, 4308,4 ton soya, 12 min 296,8 ton tərəvəz, 14 min 287 ton bostan məhsulları, 19 min 156,8 ton dən qarğıdalı, 7 ton günəbaxan, 2246 ton kartof, 12 ton qarabaşaq istehsal edilib. 2017-ci ildə pambıqçılıq və baramaçılığın inkişafında da uğurlar qazanılıb. 9550 hektarda pambıq becərilib, 20 min 497 ton məhsul, həmçinin 16 min 779 kiloqram yaş barama istehsal olunub. İpəkqurdunun yem bazasının təmin edilməsi məqsədilə 142 min tut tingi əkilib.

Çıxışlarda əhalinin təbii qaz, elektrik enerjisi, rabitə və digər xidmətlərlə təminatının yaxşılaşdırılması istiqamətində görülən işlərdən, təhsil, mədəniyyət, səhiyyə sahələrindəki vəziyyətdən də ətraflı bəhs edilib, mövcud problemlərə toxunulub, onların aradan qaldırılması yollarından və 2018-ci ildə görüləcək işlərdən danışılıb.

Prezident Administrasiyasının məsul işçisi Əflatun Rufiyev, Milli Məclisin deputatları Aqil Abbas və Tahir Rzayev yığıncaqda çıxış edərək Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən sosial-iqtisadi inkişafdan, qazanılan uğurlardan, habelə qarşıda duran vəzifələrdən söz açıblar.

**Salman ALIOĞLU,**
**"Respublika".**

# Qazaxda tibbi xidmət

Ölkə başçısı cənab İlham Əliyevin imzaladığı müvafiq sərəncamlara əsasən respublikanın digər bölgələrində olduğu kimi, Qazaxda da irimiqyaslı infrastruktur layihələri durmadan həyata keçirilir. Rayonda səhiyyənin hazırkı durumu ilə bağlı Qazax Rayon Mərkəzi Xəstəxanasının baş həkim əvəzi Sevda Məmmədova ilə həmsöhbət olduq. Sevda Məmmədova 1979-cu ildə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsini müvəffəqiyyətlə bitirdikdən sonra təyinatla Qazax rayonuna gəlmiş və poliklinikada endokrinoloq-həkim kimi əmək fəaliyyətinə başlamışdır. Onun yüksək peşəkarlığı və təşkilatçılığı nəzərə alınaraq 2011-ci ildə Qazax rayon konsultativ poliklinika şöbəsinə müdir təyin olunmuşdur. 2017-ci ildən Qazax Rayon Mərkəzi Xəstəxanasının baş həkimi vəzifəsini icra edir.

**"Biz çalışmalıyıq ki, dünyada səhiyyə sahəsində gedən ən son yeniliklər, ixtiralar Azərbaycanda da tətbiq olunsun".**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

Söhbət zamanı Sevda Məmmədova qeyd etdi ki, son iki ildə Qazaxda digər sahələrdə olduğu kimi, səhiyyədə də misli görünməmiş işlər aparılır. Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşova istənilən bir problem haqqında məlumat verildikdə dərhal məsələnin müsbət həlli istiqamətində müvafiq işlər görülərək aradan qaldırılır. Məlum olduğu kimi, Qazax Rayon Mərkəzi Xəstəxanasının yeni binasının tikintisinin təməli bir neçə il bundan öncə qoyulsa da, inşaat işləri dayandırılmışdı. Rayon rəhbərliyinin müraciətindən sonra dövlətimizin başçısı cənab İlham Əliyevin müvafiq sərəncamı ilə Qazax şəhərində 145 çarpayılıq müasir standartlara cavab verəcək mərkəzi xəstəxananın tikintisinə başlandı. Qeyd etmək lazımdır ki, hazırda tikinti işləri sürətlə davam etdirilir. May ayının sonlarında tikinti işləri tam başa çatdırılaraq əhalinin istifadəsinə veriləcəkdir. Bununla yanaşı Qazax şəhərində yerləşən uzun müddətdir ki, baxımsız qalmış Qazax Rayonlararası Ruhi Xəstəxanada əsaslı təmir işləri aparılır. Yaxın günlərdə müəssisənin istifadəyə veriləcəyi gözlənilir. Rayonun İkinci Şıxlı və Kəmərli kəndlərində fəaliyyət göstərən tibb ocaqlarında əsaslı təmir işləri artıq başa çatmışdır. Hər iki səhiyə ocağı



bərk, yumşaq və müasir standartlara cavab tibbi avadanlıqlarla təmin olunmuşdur. Rayonda səhiyyənin maddi-texniki bazasını möhkəmləndirmək məqsədilə bir sıra şəhər və kənd tibb müəssisələrində də əsaslı və cari təmir işlərinə başlanılmışdır.

Sevda Məmmədova vurğuladı ki, son 5 ay ərzində mütəmadi olaraq rayon səhiyyə işçiləri sakinlərlə görüşlər keçirmiş, əhalinin maarifləndirilməsi işini həyata keçirmişlər. Onların problemləri ilə tanış olmuş, tibbi xidmətin düzgün təşkil olunması ilə bağlı izahatlar verilmiş, tərtib edilmiş protokollar tibb işçilərinə təqdim olunmuşdur. Rayonda perinotal xidmətin (doğuşaqədər) və monotal (doğuşdansonra) düzgün təşkil olunmasına nail olunmuşdur. Sevindirici haldır ki, aparılan təbliğat və təşviqatın nəticəsidir ki, son dövrdə rayon ərazisində ana və uşaq ölümü baş verməmişdir. Xüsusi həkim briqadaları yaradılaraq məktəblərdə, uşaq bağçaları və körpələr evlərində uşaqların icbari dispanserizasiyası aparılmışdır. Rayonda qeydiyyatda olan 24664 uşaqdan 23237 nəfəri ümumi dispanserizasiyadan tam keçirilmişdir. 347 uşaqda müxtəlif xəstəliklər aşkar olunmuş, xəstələr müvafiq yerlərdə müayinə və müalicə olunmuşlar. Bununla yanaşı 3510 uşaqda tuberkulin (vərəm əleyhinə) sınağı aparılmışdır. 6800 uşağa denolmintasiya əleyhinə preparatlar verilmişdir. Qazax şəhər və kənd məktəblərində, eləcə də, uşaq bağçalarında ay ərzində iki dəfə uşaqların tibbi-profilaktik müayinəsi təşkil edilmişdir. Kənd həkim tibb məntəqələrinin həkimləri tərəfindən mütəmadi olaraq bağça və məktəblərin yoxlanılması təşkil olunmuşdur. Sevda həkim bildirdi ki, dövlətimizin başçısı cənab İlham Əliyevin tapşırığına əsasən ölkənin hər yerində olduğu kimi, Qazaxda da fevralın 12-dən may ayının 12-dək keçirilməsi nəzərdə tutulmuş əhalinin pulsuz tibbi müayinədən keçirilməsi uğurla davam etdirilir.

**Vəli VƏLİYEV,**
**"Respublika".**

# Ümumdünya Mülki Müdafiə günü münasibəti ilə tədbir

1 Mart — Ümümdünya Mülki Müdafiə günü ilə bağlı ənənəvi olaraq Səbail rayonunda silsilə tədbirlər keçirilir. Bu münasibətlə 132-134 №-li Təhsil Kompleksində Səbail Rayon İcra Hakimiyyəti və Fövqəladə Hallar Nazirliyi Səbail Rayon Fövqəladə Hallar və Mülki Müdafiə şöbəsinin birgə təşkilatçılığı ilə maarifləndirici tədbir keçirilmişdir.

Səbail Rayon İcra Hakimiyyətinin, Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Qoşunları MM İdarəsinin, nazirliyin Dövlət Yanğından Mühafizə İdarəsinin Səbail rayon hissəsinin, Səbail Rayon Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının, bələdiyyənin əməkdaşları, rayon veteranlar təşkilatlarının, Qızıl Aypara Cəmiyyəti rayon bölməsinin nümayəndələrinin iştirakı ilə keçirilən tədbiri **132-134 №-li Təhsil Kompleksinin direktoru, Əməkdar müəllim Sara Xanlarova** açıq elan edərək tədbirin keçirilməsinin məqsədi



barədə danışmışdır.

**Səbail Rayon İcra Hakimiyyəti başçısının müavini Eldar Ağayev** bildirmişdir ki, Ümumdünya Mülki Müdafiə Günü münasibəti ilə rayon icra hakimiyyəti tərəfindən müvafiq sərəncam qəbul olunmuş və bir sıra tədbirlər hazırlanmışdır. Buna uyğun olaraq rayonun bir çox idarə və təşkilatlarında, o cümlədən təhsil müəssisələrində mararifləndirici xarakterli tədbirlər keçirilir.

**Rayonun Fövqəladə Hallar və Mülki Müdafiə şöbəsinin rəisi, polkovnik-leytenant Nazir Əkbərov** tədbirin keçirilməsinin əhəmiyyətindən danışaraq bildirdi ki, əsas məqsəd şagirdləri maarifləndirmək, baş verə biləcək təbii fəlakət, yanğın və qəza hadisələri zamanı düzgün təxliyə olunmasının öyrədilməsidir.

Çıxışlardan sonra məktəbin həyətində süni yanğın hadisəsi təşkil olundu və həyəcan siqnalı verildi. Növbətçi müəllimlərin köməyi ilə məktəbin şagird kontingenti 4 dəqiqə ərzində məktəb binasından təxliyə olundu. Təxliyə olunandan şərti xilasetmə əməliyyatına başlandı. Əvvəlcə "112" qaynar telefon xəttinə məlumat verildi.

Tədbirdə məktəb şagirdlərinin iştirakı ilə hadisə zamanı məktəb binasında qalan "yaralılar" həyətə çıxarıldılar. Onlara ilkin tibbi yardım göstərildi və təcili yardım maşınları ilə xəstəxanalara aparıldılar. Yanğın zamanı yanğınsöndürmə manqasının üzvləri tərəfindən yanğın lokalizə edilərək söndürüldü. Ətrafdakı radiasiyanın müəyyən olunması, əleyhqaz və digər vasitələrdən istifadə qaydaları izah edildi. Təlimlər çərçivə-



sində xilasedici, yanğınsöndürmə, radiasiya əleyhinə və digər mühafizə vasitələrinə, FHN xilasedicilərinin xüsusi texnikası və alətlərinə baxış keçirildi.

Sonra orta məktəbin siniflərində maarifləndirici açıq dərslər keçirildi. Bu dərslərdə şagirdlərə əyani vəsaitlər və videofilmlər nümayiş olundu, onların fövqəladə hallarla bağlı bilikləri yoxlanıldı.

**Məhəmməd VƏLİYEV,**
**"Respublika".**

# Bu dünyanı dolandıran...

Arxiv hər bir ölkənin tarix kitabıdır. Bu kitab əsrlərlə insanlıq tarixçəsini yaşadan xəzinədir. İnsan doğulandan hər bir dəqiqəsi, hər anı tarixə dönür. Arxivsiz ömür sürmək, ulularımızın izini göyərtmək mümkünsüzdür. Buna görə də nəinki tarixi yazanlar, hətta adi insanlar belə istər-istəməz bu mənəvi xəzinəyə müraciət etmək məcburiyyətindədirlər.

Nizami Cəfərovun 1991-ci ildə qələmə aldığı bu kitab, alim, yazıçı Manaf Süleymanovun həyat və fəaliyyətini, keçdiyi ağır yolu əks etdirən ömür dastanıdır. O Manaf Süleymanovun ki, son illərdə yazdığı əsərlərin "qida"sını arxivlərdən almışdı.

1960-cı illərdə nəsrimizə və poeziyamıza gənc istedadların sürətlə "hərəkətə keçməsi" Azərbaycan ədəbiyyatında dönüş əmələ gətirdi. Bu gənclər sələflərindən fərqli olaraq mətbuata daha cəsarətlə yazılmış əsərlər çıxarırdı. Düzdür onların bu cəsarətli yazılarına qarşı haqlı-haqsız "hücumlar" öz işini görürdü. Lakin bu cür yazılan bədii əsərlər nə qədər çox olurdusa, bir o qədər də oxucular tərəfindən rəğbətlə qarşılanırdı. İndi artıq Azərbaycan ədəbiyyatının görkəmli sənətkarları kimi tanınan yazıçı və şairlərimiz həmin dövrlərin "məngənə"sindən çətinliklə də olsa çıxa bildilər. Tarix sonradan bu yazıların vicdanla qələmə alındığını, düzgün və vaxtında yazıldığını sübuta yetirdi.

"60-cılar"ın yaratdığı ədəbi-ictimai təkanın 70-ci, 80-ci illərdə yeni tənqidçi-ədəbiyyatşünaslar nəsli yetişdi. Əgər həmin illərdə ədəbiyyata gələn tənqidçilər ədəbiyyatın yalnız bir sahəsini tədqiq obyektinə çevirirdisə, ədəbiyyatşünaslıq sahəsində ən gənc alim sayılan Nizami Cəfərov qısa bir müddət ərzində müxtəlif mövzulara müraciət etməyə başladı. İlk qələm təcrübəsini dilçiliyə həsr edən, bu sahədə ciddi elmi araşdırmalar aparan, həmçinin ədəbi tənqidimizdə kifayət qədər diqqət çəkən məqalələrin müəllifi olan N.Cəfərov, sonralar nəinki nəsr və poeziyaya, hətta siyasi mövzularda belə fikir söyləməkdən çəkinmədi.

N.Cəfərov ədəbiyyatımızın bütün sahələrində köhlənini çapmağa qadir olan ziyalıdır. Təsadüfi deyil ki, bir-birinin ardınca "Azərbaycan türkcəsinin milliləşməsi tarixi", "Koroğlu"nun poetikası", "Türk dünyası: xaos və kosmos", "Eposdan kitaba", "Genezisdən tipologiyaya", "Azərbaycanşünaslığa giriş", "Azərbaycanın mədəniyyəti məsələləri", "Türkiyə Atatürkün, Azərbaycan Heydər Əliyevin əsəridir", "Klassiklərdən müasirlərə", "Türk xalqları ədəbiyyatı" və s. bir-birindən fərqli əsərləri həmişə tənqidin diqqət mərkəzində durur.

Akademik Tofiq Hacıyev Nizami Cəfərovun hələ tələbəlik illərindən onun fitri istedadına bələd olduğunu belə xatırlayır:

**"Universitetin (BDU nəzərdə tutulur - A.K.) IV kursunda oxuyarkən Tələbə Elmi Cəmiyyəti xətti ilə Nizamini Qazan Universitetinə göndərdim. Məruzəsini (Nizami Cəfərov - A.K.) bitirdikdən sonra bir yerli professor deyir ki, biz tələbələrin elmi işlərini dinləyirik, elmi dərəcəlilərinkin yox. Professor bildirir ki, bu Nizami Cəfərov Azərbaycan Dövlət Universitetinin IV kurs tələbəsidir. Sovet dövrünün görkəmli türkoluqu, o zaman Qazan Pedaqoji İnstitutunun rektoru, professor Mirfateh Zəkiyev heyrət və sevinclə tələbəmin bu parlaq istedadına görə mənə təşəkkür və təbrik məktubu yazmışdı".**

N.Cəfərov məhsuldar tədqiqatçıdır. O eyni vaxtda kürsüyə qalxıb müvəffəqiyyətlə doktorluq dissertasiyası müdafiə etməyə, kürsüdən düşən kimi qələmə alacağı əsərin ilk cümləsini yazmağa qadir tədqiqatçı-alimdir.

Təsadüfi deyil ki, N.Cəfərov "Ədəbiyyat və incəsənət" qəzetinin əməkdaşı olanda, bir tərəfdən, doktorluq müdafiəsinə hazırlaşır, digər tərəfdən Manaf Süleymanov fenomeni onu sakit buraxmır, yazıçı haqqında genişhəcmli yazı qələmə almağı qarşısına məqsəd qoyur.

Qocaman yazıçı, alim olan Manaf Süleymanov haqqında əsər yazmaq N.Cəfərovun çoxdankı arzusu idi. Şəxsiyyətinə, müdrikliyinə, qələminə ehtiramla yanaşan, (kimliyindən asılı olmayaraq hər bir şəxsə isti münasibət N.Cafərovun xasiyyətindən irəli gəlir) ona övlad münasibəti göstərən N.Cəfərov yazıçı ilə görüşməyi qət edir, saatlarla onun danışdığı yerli-yataqlı xatirələri qələmə (diktofona yox) almağa müvəffəq olur. Yazını qələmə almaq Nizami müəllimə o qədər də çətin olmur. Kitabın başlanğıcında müəllif bu barədə deyir:

**"Mən çox adamlar görmüşəm, çox adamlarla həmsöhbət olmuşam, amma Manaf müəllim kimi söhbətcil, müdrik adamlara az-az rast gəlmişəm; həlim, bununla belə inamlı səsi, işıqlı siması, ağayana hərəkətləri onu mənə sevdirdi və mən ona saatlarla bu dünyagörmüş kişinin xatirələrinə qulaq asmaqdan doymadım...".**

Nəhayət qocaman yazıçı haqqında qələmə aldığı ömür dastanı 1993-cü ildə "Yazıçı" nəşriyyatında işıq üzü görüb oxucuların stolüstü kitabına çevrildi.

Qeyd edək ki, Manaf Süleymanovun Dövlət Ədəbiyyat və İncəsənət arxivində saxlanılan şəxsi sənədləri arasında mühafizə olunan əsərin əlyazmasında adı "Manaf Süleymanov, yaxud tarixə dönmüş günlər" yazılsa da, nəşriyyat ona "Dolan, kəfkirim, dolan..." adını verməyi məsləhət bilib. Və müəllif də etiraz etməyib.

O zaman kiril əlifbası ilə nəşr olunmuş əsərin maraqlı, sadə dillə qələmə alındığını, oxucular tərəfindən rəğbətlə qarşılandığını nəzərə alıb, onu müasir əlifba ilə yenidən nəşr edilməsini məqsədə uyğun hesab etdik.

Müəllif əsərdə yazıçının nəinki xatirələrinə, həmçinin bədii yaradıcılığının təhlilinə də geniş yer ayırır. Onun qələmə aldığı hər bir əsər haqqında elmi mülahizələrini bildirir. Yazıçının doğulduğu Böyük Qafqaz sıra dağlarının qoynunda yerləşən Lahıc kəndi, onun dünyanı heyrətə gətirən sənətkarları: bənnaları, dabbaqlıq, başmaqçılıq kimi sahələri,




xüsusilə bu torpağın "gerbi" sayılan misgərləri haqqında geniş söhbət açır.

N.Cəfərov da bu kontekstdən yazıçının həyatının görünməyən məqamlarını sadə, oxunaqlı bir dildə qələmə alıb.

Əsərə bu şirinlik, istilik, doğmalıq haradan hopmuşdu? Nədəndir Nizami müəllimin bu torpağa hədsiz məhəbbəti? Əsərin "Son sözü"ndə müəllifin Manaf Süleymanova yazdığı açıq məktubdan aydın olur ki, Nizami müəllimin atası Qulu müəllim bir zaman təbiətin bəxş etdiyi bu gözəl yerlərdə müəllimlik etmiş, uşaqlara dilin, ədəbiyyatın sirlərini öyrətmişdi. Anasının bu yerin insanlarını, onların xoş rəftarını, isti münasibətlərini, az-çox öyrəndiyi Lahıc dilini hələ də unutmadığını xatırlayır. Ailə öz ata ocağına qayıtdıqdan sonra həmin səfalı yerlərdən tez-tez söhbət açır, dəfələrlə qonaq olduğu İbrahim müəllimin, Çərkəz xalanın şirin söhbətlərini isti bir duyğu ilə yada salırmış.

"Dolan, kəfkirim, dolan..." uşaqlıq illərini Lahıcda keçirmiş müəllifin doğma yerlərə mənən-ruhən qayıdışıdır... Heç nə səbəbsiz deyil... Və doğrudan da, bu dünyanı bir dolandıran var...

Manaf Süleymanovun ömür dastanı olan bu kitab maraqla oxunur, ibrətamiz və düşündürücüdür.

**Aslan KƏNAN.**

# DÜNYA BUGÜN

*FAKTLAR, HADİSƏLƏR, ŞƏRHLƏR*

## PENTAQON SURİYADAKI HƏRBİ BAZALARININ SAYINI AÇIQLAMIR



Pentaqon Suriya ərazisindəki ABŞ hərbçilərinin sayı və yerləşməsinə dair məlumatları açıqlamır. "APA"nın Rusiya mətbuatına istinadən verdiyi xəbərə görə, bunu ABŞ-ın Suriyada 20-dək hərbi bazasının olmasına dair Rusiya rəsmisinin iddiasını şərh edərkən Pentaqon nümayəndəsi Erik Paon bəyan edib.

"Suriyada əsas missiyamızın məqsədlərinə, yəni İŞİD-in məğlub edilməsinə nail olmaq üçün təhlükəsizlik baxımından hərbçilərimizin sayı və yerləşməsini müzakirə mövzusuna çevirmirik", - deyə Pentaqon rəsmisi qeyd edib.

Bununla yanaşı, Erik Paon əlavə edib ki, bu cür bəyanatlarla Rusiya öz zəifliyini nümayiş etdirir və ictimaiyyətin diqqətini Suriyada atəşkəs rejiminin təmin edə bilməməsindən yayındırır.

Məlumat üçün qeyd edək ki, Rusiya Təhlükəsizlik Şurası katibinin müavini Aleksandr Venediktov bundan əvvəl bəyan edib ki, Suriyanın YPG-nin nəzarətində olan ərazilərində ABŞ-a məxsus 20-dək hərbi baza yaradılıb.

## İRAN XİN-i: BMT-nin HESABATI BİZİM ÜÇÜN ETİBARSIZDIR



"BMT baş katibinin İranda insan haqlarının durumu ilə bağlı hesabatı İslam Respublikası üçün dəyərsiz və etibarsızdır". "APA"nın verdiyi xəbərə görə, bunu İranın Xarici İşlər Nazirliyinin sözçüsü Bəhram Qasimi martın 2-də keçirdiyi mətbuat konfransı zamanı qeyd edib.

Bəhram Qasımi bildirib ki, BMT baş katibinin hesabatı qurumun İnsan Haqları Şurasının növbəti iclasına təqdim etmək məqsədilə hazırlanıb. O deyib: "Öncədən də müşahidə edirdik ki, bu kimi hesabatlar mahiyyət və prinsip etibarı ilə çoxlu nöqsanlara malikdir. Hesabat etibarsız qaynaqların məlumatları əsasında hazırlanıb və hesabatda İranın insan haqları sahəsindəki nailiyyətləri qeyd olunmayıb. İran İslam Respublikası qabaqcıl İslam qanunları və ölkə konstitusiyasının prinsiplərinə uyğun olaraq vətəndaşlarının hüquqlarını daha yaxşı səviyyədə təmin edir".

Eyni zamanda, Bəhram Qasıminin sözlərinə görə, insan haqları amili ikili standartlar, siyasi və xüsusi məqsədlər üçün alət kimi istifadə edilir. "İran hesab edir ki, dünyanın müxtəlif ölkələrində, o cümlədən Yaxın Şərq ölkələrindəki müharibələr nəticəsində insan faciələrinin yaşandığı bir vaxtda ikili standart siyasəti yürüdərək bu və digər ölkədə insan haqları durumunu dəyərləndirmək dünya ictimaiyyətinin BMT-yə etimadsızlığına səbəb olur", - deyə Bəhram qasimi əlavə edib.

## "QAZPROM" UKRAYNA İLƏ MÜQAVİLƏLƏRİ LƏĞV EDƏCƏYİNİ AÇIQLAYIB



Rusiyanın "Qazprom" dövlət enerji şirkəti Ukrayna ilə bütün müqavilələrin ləngimədən ləğv olunacağını bəyan edib. "APA"-nın Rusiya mətbuatına istinadən verdiyi xəbərə görə, bunu "Qazprom" şirkətinin idarə heyətinin sədri Aleksey Miller qeyd edib.

Məlumata görə, Aleksey Miller bildirib ki, söhbət həm ukraynalı istehlakçılar üçün verilən qazdan, həm də Rusiya qazının Avropaya tranziti barədə Ukrayna ilə imzalanmış müqavilədən gedir.

Verilən xəbərə görə, "Qazprom" Ukraynanın "Naftoqaz" dövlət şirkəti ilə bağlanmış müqavilələrin ləğvi üçün Stokholm arbitrajında dərhal müvafiq prosedurlara başlayacaq.

Bununla yanaşı, Aleksey Miller bu qərarı Stokholm Arbitraj Məhkəməsinin qəbul etdiyi qərarın "Qazprom"un maraqlarına qarşı yönəlməsi ilə izah edib. "Arbitrlər öz qərarlarını Ukrayna iqtisadiyyatının durumunun kəskin pisləşməsi ilə arqumentləşdiriblər. Biz Ukraynanın iqtisadi problemlərinin bizim hesabımıza həll olunmasına qətiyyətlə qarşıyıq. Belə vəziyyətdə mövcud müqavilələrin davam etdirilməsi "Qazprom" üçün iqtisadi baxımdan məqsədəuyğun deyil və əlverişsizdir", - deyə Aleksey Miller əlavə edib.

Qeyd edək ki, fevralın 28-də Stokholm arbitrajı "Naftoqaz"ın "Qazprom"a qarşı iddiası əsasında qərar çıxarıb. Qərara əsasən Rusiya tərəfi 2009-2017-ci illərdə Ukrayna vasitəsilə müqavilədə nəzərdə tutulduğundan daha az qaz tranziti həyata keçirdiyi üçün qarşı tərəfə 4,6 milyard ABŞ dolları məbləğində cərimə ödəməlidir.

Həmçinin "Naftoqaz"ın "Qazprom"a 2 milyard dollar borcu nəzərə alınaraq "Qazprom"un ödəməli olduğu məbləğ hazırda 2,6 milyard dollar təşkil edir. Bundan başqa, arbitraj "Qazprom"un tranzit müqaviləsinin sonuna qədər (2019-cu ilin sonu) Ukrayna vasitəsilə ildə 110 milyard kubmetr qaz nəql etməsi, yaxud bunun əvəzini pulla ödəməsi barədə qərar verib.

Bununla yanaşı, bildirilir ki, əgər tranzit 2017-ci il səviyyəsində (93,5 milyard kubmetr) olarsa, "Qazprom" hər il 450 milyon dollar itirəcək. "Naftoqaz" rəhbəri Andrey Kobolev bildirib ki, əgər tranzit 110 milyard kubmetrdən az olsa, Ukrayna tərəfi yenidən məhkəməyə müraciət edərək kompensasiya istəyəcək.

## İSRAİLİN BAŞ NAZİRİ BENYAMİN NETANYAHU İFADƏ VERDİ



İsrailin baş naziri Benyamin Netanyahu ölkənin ən böyük telekommunikasiya şirkəti "Bezeq"in də daxil olduğu korrupsiyaya dair istintaq çərçivəsində ilk dəfə ifadə verib. Bu barədə "TRT" telekanalı məlumat yayıb.

Xəbər verilir ki, Netanyahu və xanımı haqqındakı iddialar arasında cütlüyün rüşvət alması ilə bağlı irəli sürülən iddia da var.

Korrupsiya, rüşvət və qanun pozuntusu halları ilə əlaqədar açılan istintaqda Netanyahu və həyat yoldaşının yaxın əlaqələri təqib olunmağa başlayıb.

Məlumata görə, ötən həftə İsrail polisi "Bezeq"i "Eurocom" adlı şirkət vasitəsilə idarə edən Şaul Eloviç ilə birlikdə onun xanımı, eləcə də "Bezeq"in icraçı direktoru və Netanyahunun yaxın dostu Stella Handlerı nəzarətə götürüb.

Eyni zamanda, xəbər verilir ki, İsrail baş nazirinin ifadə verərkən söylədikləri açıqlanmayıb. Daha əvvəllər Netanyahu iddiaları təkzib edərək baş verənləri cəfəngiyyat adlandırmışdı.

## ABŞ RUSİYANIN SURİYA İLƏ BAĞLI AÇIQLAMASINA MÜNASİBƏT BİLDİRİB



ABŞ-ın Dövlət Departamentinin sözcüsü Hizer Noyert Rusiyanın xarici işlər naziri Sergey Lavrovun "Şərqi Qutada humanitar dəhlizlər açılıb" şəklindəki açıqlamalarına münasibət bildirib. Bu barədə "TRT" telekanalı məlumat yayıb.

Bölgədə ötən şənbə günündən bu yana 100-dən çox adamın həlak olduğunu bildirən Hizer Noyert deyib: "Bölgədə atəşkəsə əməl olunmur. Rusiya BMT tərəfindən qəbul edilən qərarı tətbiq etməlidir''.

Eyni zamanda, Hizer Noyert Rusiyanın Suriyada Bəşər Əsəd qüvvələrinə təlim keçdiyini və onları silahla təmin etməyə davam etdiyini vurğulayıb.

Bununla yanaşı, Rusiyanın Suriyadakı hadisələrə görə məsuliyyət daşıdığını dilə gətirən Hizer Noyert baş verənləri çox yaxından izlədiklərini bildirib.

"Sözügedən humanitar dəhlizləri heç kim istifadə etmir. İnsanlar bu dəhlizlərin Bəşər Əsədə xidmət etdiyini düşünürlər", - deyə ABŞ Dövlət Departamentinin sözcüsü Hizer Noyert qeyd edib.

## ERMƏNİSTANDA YENİ PREZİDENT SEÇİLDİ



Ermənistan parlamenti hakim koalisiya təşkil edən Ermənistan Respublikaçılar Partiyası və Daşnaksütyun Erməni İnqilabi Federasiya fraksiyaları tərəfindən namizədliyi irəli sürülən Ermənistanın Böyük Britaniyada fövqəladə və səlahiyyətli səfiri Armen Sarkisyanı Ermənistan Respublikasının yeni prezidenti seçib. Bu barədə "BBC" agentliyi xəbər verib.

Məlumatına görə, namizədin lehinə 90, əleyhinə 10 millət vəkili səs verib, 1 bülleten isə etibarsız tanınıb. Səsvermədə 105 nəfərdən ibarət parlamentin 101 üzvü iştirak edib.

Ermənistanın prezident idarəçilik üsulundan tam parlament idarəçilik üsuluna keçməsini nəzərdə tutan 2015-ci ildə qəbul olunmuş Konstitusiyaya əsasən, prezident ümumxalq seçki vasitəsilə deyil, parlament üzvləri tərəfindən seçilir.

Qalib gəlmək üçün namizədin lehinə parlament üzvlərinin dörddə üçü (79 nəfər) səs verməlidir. Hakim fraksiyalar isə birlikdə 65 nəfər təşkil edir.

Öz namizədini irəli sürmək üçün parlamentdə kifayət qədər imza toplaya bilməyən 9 nəfərlə təmsil olunmuş müxalif "Yelk" fraksiyası namizədin əleyhinə səs verməyi vəd etmişdi.

Yeganə namizəd Armen Sarkisyanın qələbəsi üçün çatışmayan səsləri parlamentin "Tsarukyan" fraksiyası təmin edib.

Məlumata görə, Ermənistanda prezident 7 il müddətinə seçilir və ikinci dəfə seçkilərdə namizəd qismində iştirak edə bilməz. Yeni konstitusiyaya əsasən, prezident heç bir siyasi partiyaya üzv olmamalıdır.

Hazırkı prezident Serj Sarkisyanın səlahiyyətləri aprelin 9-da başa çatır. ■

# “Uşaqların sağlamlığı naminə” sosial layihə

**2018-ci il fevralın 27-də Azercell Telekom MMC və Respublika Müalicəvi Diaqnostika Mərkəzi (RMDM) tərəfindən uşaqların sağlamlığının qorunması istiqamətində birgə sosial layihəyə start verilib.**

Layihə çərçivəsində Hepatit B, C, C-reaktiv zülal, QİÇS kimi xəstəliklərin təyin edilməsi məqsədilə Azercell-in Mobil Klinikasında RMDM-in peşəkar tibb heyəti tərəfindən “SOS Uşaq Kəndləri - Azərbaycan” Assosiasiyasında məskunlaşan uşaqlardan qan analizləri götürülüb və müayinələrin cavabı Azercell Telekom MMC-nin şəbəkəsi ilə himayəçi valideynlərin mobil telefonlarına, eləcə də müəssisənin direktoruna təqdim edilib. Məlumatlar Azercell Telekom MMC tərəfindən avtomatlaşdırılmış texnologiyada tam məxfi olaraq arxivləşdirilib. Layihənin gələcəkdə daha geniş sosial qruplarda reallaşdırılması planlaşdırılır.

Pilot xarakter daşıyan layihənin həyata keçirilməsində məqsəd uşaqların sağlamlığı sahəsində keyfiyyətli tibbi xidmət göstərmək və gələcəkdə yarana biləcək xəstəliklərin erkən aşkarlanmasını təmin etməklə uşaqları qorumaqdır. Sosial layihənin məhz Respublika Müalicəvi Diaqnostika Mərkəzi ilə birgə həyata keçirilməsi RMDM-in Bakıda ən yüksək beynəlxalq tibbi standartlara cavab verən JCI (Joint Commission İnternational) akkreditasiyasından keçərək xüsusi qızıl rəngli fərqləndirmə nişanı ilə təltif edilmiş ilk və tək tibb müəssisəsi olması və bu mərkəzdə müasir, ən yaxşı avtomatik analizatorlarla təchiz olunmuş, ISO15189 sertifikatını almış laboratoriyanın fəaliyyət göstərməsidir.








Məlumat üçün bildirək ki, Azercell Telekom MMC-nin 22 illik fəaliyyəti ərzində həyata keçirdiyi layihələrin böyük qismi uşaq hüquqlarının qorunması, uşaqların sağlamlığı və rifahına yönəlib. “Uşaq Qaynar xətti”, “Uşaq Paralimpiya Komitəsi”, “Mobil Diş Klinikası”, “Mobil Göz Klinikası”, uşaqların İnternet şəbəkəsindən təhlükəsiz istifadəsi üçün “Universal müdafiə”, “Android üçün müdafiə”, “Valideyn müdafiəsi” xidməti və s. layihələr bu gün də uğurla həyata keçirilir.

**Ülvi QARAYEV,**
**“Respublika”.**

# Əmək və sosial müdafiə üzrə e-xidmətlərə müraciətlərin sayı ictimai marağı təsdiq edir

Cari ilin fevral ayında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin “Elektron Hökumət” portalı üzərindən təqdim etdiyi elektron xidmətlərə 750 607 dəfə müraciət olunub. Ümumilikdə, ötən dövrdə əmək və sosial müdafiə sahələri üzrə e-xidmətlərə 24 milyon 575 min müraciətin qeydə alınması aktual fəaliyyət sahələrini əhatə edən bu e-xidmətlərə cəmiyyətdə olan böyük sosial tələbi və ictimai marağı təsdiq edir.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına əsasən, son illərdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən aparılan sistem xarakterli islahatlar əmək və sosial müdafiə, tibbi-sosial ekspertiza və reabilitasiya, sosial sığorta sahələrində müasir texnologiyaların geniş tətbiqi şəraitində dövlət idarəçiliyinin təkmilləşdirilməsinə və optimallığının artırılmasına səbəb olub. Bu sahələrdə avtomatlaşdırılmış sistemlər üzərində əhaliyə təqdim olunan 30-a yaxın elektron xidmət ölkədə “Elektron Hökumət”in əhatə dairəsinin və funksionallığının artırılması müqabilində dövlət xidmətlərinin müasir əsaslar və şəffaflıq prinsipləri üzərində qurulmasına şərait yaradıb. Geniş əhali kontingenti ilə sıx təmas şəraitinin mövcud olduğu xidmət sahələrinin tam elektronlaşdırılması həmin sahələrin məmur-vətəndaş kontaktlarının minimuma endirilməsi ilə şəffaflaşdırılmasına, əhalinin müvafiq dövlət xidmətlərindən “bir pəncərə” üzrə və müasir tərzdə, online rejimdə çevik istifadə imkanlarına yiyələnməsinə, nəticə etibarilə bu xidmətlərdən vətəndaş məmnunluğunun təmin edilməsinə imkan verib.

**M.MUSTAFAYEV,**
**“Respublika”.**

## BİLDİRİŞ

“Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin 2018-ci ildə istifadə olunması nəzərdə tutulmuş 60000 ədəd ciddi uçot blankı olan “malların fiziki şəxslərə təhvil-qəbul qəbzi”nin satınalınması məqsədi ilə keçirdiyi kotirovka sorğusunda “GƏL” MMC qalib gəlmişdir.

**Tender Komissiyası.**

## ASTARA GÖMRÜK İDARƏSİ

## KOTİROVKA SORĞUSU ELAN EDİR

**1.** İdarənin digər xərclərinin satınalınması

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 12.03.2018-ci il tarixinədək qəbul olunur. Maraqlanan təşkilatlar 0252254196 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

**Ünvan:** *Astara şəhəri, Astara Gömrük İdarəsi*

TƏKRAR

## “Bakı Metropoliteni” QSC boyalar, lak, yaxma, yapışdırıcı və boya məmulatlarının satınalınması üzrə

## AÇIQ TENDER ELAN EDİR

**Tender 2 (iki) lot üzrə keçirilir:**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi 20-dən (Əlaqələndirici şəxs: İlqar Qasımov, telefon: 490-00-00) ala bilərlər.

**LOT-1. Boyalar, lak və boya məmulatlarının satınalınması**
**LOT-2. Yaxma və yapışdırıcı mallarının satınalınması**
**İştirak haqqı - LOT-1 - 200 manat**
**LOT-1 - 200 manat**
**Hesab: AZ98AZRT38050019440010268002**
**VÖEN: 1402871431**
**Bank: AZƏR-TüRK BANK ASC (Mərkəz filialı)**
**Kodu: 501361**
**VÖEN: 9900006111**
**M/H: AZ02NABZ01350100000000022944**
**S.W.İ.F.T: AZRTAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 40 bank günü qüvvədə olmalıdır);*
*- tender təklifi dəyərinin 2%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 70 bank günü qüvvədə olmalıdır).*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 06 aprel 2018-ci il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 17 aprel 2018-ci il saat 18:00-a qədər, Bakı şəhəri, M.Rəfili küçəsi 20, ünvanına “İcraya Nəzarət, Kargüzarlıq və Təsərrüfat İşləri” şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 18 aprel 2018-ci il saat 15:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**“BAKI METROPOLİTENİ” QSC**
**TENDER KOMİSSİYASI.**

## Masallı Regional Mədəniyyət və Turizm İdarəsi

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 2 (iki) lot üzrə keçirilir.**
**Lot 1 Bərk inventarların satınalınması**
**Lot 2 Avadanlıqların satınalınması**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə, ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər hər lot üzrə 200 manat məbləğində iştirak haqqını aşağıdakı göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu ala bilərlər.

**Ünvan: Masallı rayonu, Talışxanov küç, 27**

**Əlaqələndirici şəxs: İbrahimov Mirələm**
**Tel: 0505768991**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

**VÖEN: 6400037221**
**H/h: AZ44AİİB36010019446100201161**
**Bank: “Kapital Bank”ın Masallı filialı**
**Kod: 200617**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ01350100000000001944**
**SWİFT AİİBAZ-2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*—tenderdə iştirak etmək üçün ərizə;*
*—tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*—tender təklifi (zərflərin açıldığı gündən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*—tender təklifi qiymətinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı gündən sonra ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*
*—Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*—iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*—iddiaçının son bir il ərzində maliyyə vəziyyəti haqqında bank arayışı;*
*—iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*—iddiaçının müvafiq malları üzrə mənşə və uyğunluq sertifikatları, işləri yerinə yetirmək üçün analoji işlərdə təcrübəsi.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 20 aprel 2018-ci il saat 17:00-a qədər, iş qrafiki, tender təklifi və bank zəmanətlərini isə möhürlənmiş ikiqat zərfdə 30 aprel 2018-ci il tarixdə saat 17:00-a qədər təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri 1 may 2018-ci il tarixdə saat 16:00-da yuxarıda göstərilən ünvanda açılıcaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

## Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 5 (beş) lot üzrə keçirilir.**
**Lot-1. Dəftərxana ləvazimatı və təsərrüfat mallarının alınması**
**Lot-2. İdarənin digər xərcləri**
**Lot-3. Yumşaq inventarların alınması**
**Lot-4. Müxtəlif növ avadanlıqların alınması**
**Lot-5. Mikrafonların alınması**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə, ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lotlar üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu ala bilərlər.

**Lot-1 – 300 AZN**
**Lot-2 – 300 AZN**
**Lot-3 – 300 AZN**
**Lot-4 – 300 AZN**
**Lot-5 – 300 AZN**

**Ünvan: Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi 40, Hökümət evi, 5-ci giriş qapısı, 3-cü mərtəbə**

**Əlaqələndirici şəxs:** Cəfərova Türkan
**Tel.: (050) 675-65-94**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

**Hesab: AZ78CTRE00000000000002178501**
**VÖEN: 1700015381**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**M/H: AZ41NABZ01360100000000003944**
**S.W.İ.F.T: CTREAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*—tenderdə iştirak etmək üçün ərizə;*
*—tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*—tender təklifi (zərflərin açıldığı gündən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*—tender təklifi qiymətinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı gündən sonra ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*
*—Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*—iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*—iddiaçının son bir il ərzində maliyyə vəziyyəti haqqında bank arayışı;*
